RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 160 (8753) ÇƏRŞƏNBƏ, 4 avqust 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# "ASAN xidmət" innovasiya sahəsində Azərbaycan brendi kimi tanınır

## Prezident İlham Əliyev 6 saylı Bakı "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 saylı Bakı "ASAN xidmət" Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlət başçısına Bakıda 6-cı, ölkə üzrə isə 21-ci olan bu "ASAN xidmət" mərkəzi barədə məlumat verdi.

Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır.

Təsadüfi deyil ki, dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb.

Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin olunub və bu proses sürətlə davam edir. Dövlət başçısının təşəbbüsü ilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişiklik etdi və innovasiya sahəsində Azərbaycan brendi kimi dünyada tanındı.

Məlumat verildi ki, 6 saylı mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Dövlət orqanlarının bu mərkəzdə fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilərdən, Vətən müharibəsinin iştirakçılarından ibarətdir.

Bildirildi ki, hazırda fəaliyyət göstərən 20 "ASAN xidmət" mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu günədək "ASAN xidmət"ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Ardı 2-ci səh.

# Azərbaycan qlobal təhlükəsizlik indeksi üzrə 15 pillə irəliləyib

Beynəlxalq Telekommunikasiya İttifaqının yeni "Qlobal kibertəhlükəsizlik indeksi" (GCI) ölkələrin kibertəhlükəsizlik problemlərinin həllinə necə qətiyyətlə çalışdığını göstərməklə yanaşı, həm də bu təhlükə və risklərin həcminin azaldılmasında onların fəaliyyətlərini dəyərləndirir. Xüsusən pandemiya dövründə İKT-nin sürətlə inkişafı ona səbəb oldu ki, ölkələrin təxminən yarısı artıq kompüter insidentləri ilə bağlı milli reaksiya komandaları yaratdıqlarını bəyan etdilər.

Pandemiyanın tüğyan etdiyi uzun aylar ərzində informasiya kommunikasiya texnologiyalarından yaranan misligörünməmiş asılılıq kibertəhlükəsizliyin təmin edilməsini, istifadəçilər arasında güclü inamın yaranmasını zərurətə çevirdi. Dövlətlər və iqtisadiyyatın müxtəlif sahələri bu təhlükəsizliyin hamı üçün etibarlı olmasını təmin etmək məqsədilə birlikdə fəaliyyət göstərmək məcburiyyətində qaldılar.

Maraqlısı odur ki, artıq 2020-ci ilin sonunadək dövlətlərin 64 faizi kibertəhlükəsizliyin milli strategiyasını (NCS) qəbul etdilər. Məlumatların mübadiləsi və sıx kommersiya fəaliyyəti artıq əvvəlki illərdən fərqli olaraq yalnız bir ölkənin və ya təşkilatın hüdudları ilə kifayətlənmədi, əksinə, kibertəhlükəsizlik üçün mövcud dövlət sərhədlərini, ümumiyyətlə, qalxan funksiyasını itirdi. Artıq günümüzün reallığı ondan ibarətdir ki, heç bir qurum və ya dövlət təkbaşına kibertəhlükələrdən və risklərdən sığortalanmaq iqtidarında deyil.

Kibertəhlükəsizliyin dəyişən mühitini izləmək mümkündür. Məsələn, 2015-2019-cu illərdə bir milyard insan ilk dəfə internetə qoşulmuşdur ki, bu da öz növbəsində kibercinayətlərin artmasına təkan vermişdir. Məsələn, təkcə 2020-ci ildə kibercinayətlərdən dəyən qlobal ziyanın 6 milyard dollar həcmində olması gözlənilirdi. Bu fonda vətəndaşların, təşkilat və dövlətlərin artan narahatçılığı başadüşülən və təbiidir.

Xatırladaq ki, Beynəlxalq Telekommunikasiya İttifaqı Birləşmiş Millətlər Təşkilatının İKT sahəsində çalışan xüsusi qurumdur. 900 kampaniya, şirkət, universitet, həmçinin beynəlxalq və regional təşkilatları özündə birləşdirən bu quruma 193 ölkə daxildir.

Ardı 3-cü səh.

## "Can Azərbaycanın türk bayrağı sevgisi"




Bax: səh. 5

# Avrasiyada yeni güc mərkəzi yaranır

## Azərbaycan, Türkiyə və Pakistanın yeni əməkdaşlıq platforması regionda təhlükəsizliyin təminatıdır

Zaman yeni əməkdaşlıqları, güclərin birləşməsini zərurətə çevirir. Azərbaycan diplomatiyasının təşəbbüsləri, qərarları yalnız bir dövlət kimi özünün inkişafına xidmət etmir, həm də regionun siyasi və iqtisadi yaşam tərzinə yaxşı mənada təsir göstərir.

44 günlük Vətən müharibəsindəki şanlı qələbə isə Azərbaycanın siyasi nüfuzunun, iqtisadi-hərbi qüdrətinin təsdiqi olmaqla bərabər, regionda tamamilə yeni geosiyasi reallıqlar yaratdı. Azərbaycan dünyada öz sözü, mövqeyi, müstəqil xarici siyasəti olan ölkə imicini daha da möhkəmləndirdi.

Ötən həftə ölkəmizin siyasi tarixində mühüm hadisə yaşandı. Üç dost, qardaş ölkə olan Azərbaycan, Türkiyə və Pakistan arasında parlament səviyyəsində yeni əməkdaşlıq formatı yaradıldı. Bu təşəbbüsün müəllifi isə Azərbaycan oldu. Təşəbbüsün məhz Azərbaycandan başlayıb inkişaf etməsi ölkəmizin uğurlu xarici diplomatiyasının və siyasətinin real nəticəsi idi.

Ardı 3-cü səh.

# CQBK-nin texniki operatorluğunun bp-dən SOCAR-a ötürülməsi prosesi başa çatdı



Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) texniki operatorluğunun bp Exploration (Shah Deniz) Limited şirkətindən SOCAR Midstream Operations Limited şirkətinə ötürülməsi prosesi başa çatıb.

CQBK təbii qazın Azərbaycandan Gürcüstan ərazisi üzərindən Türkiyə və Avropaya ixracı üçün nəzərdə tutulan "Cənub qaz dəhlizi"nin dörd seqmentindən biridir. SOCAR Midstream Operations MMC SOCAR-ın 100 faizlik törəmə müəssisəsidir.

Xatırladaq ki, texniki operatorluğun ötürülməsi "Şahdəniz" yatağının 2-ci fazası və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihələri çərçivəsində Yekun İnvestisiya Qərarının bir hissəsi olaraq 2013-cü ilin dekabrında imzalanmış CQBK Boru Kəməri Payçılarının Sazişinin yenilənmiş variantında nəzərdə tutulmuşdu. Saziş CQBK-nin genişləndirilməsi layihəsi başa çatdıqdan bir il sonra SOCAR-a boru kəmərinin texniki operatorluğunu öz üzərinə götürmək hüququ verib. Kəmərin genişləndirilməsi üzrə tikinti işləri 2019-cu ilin martında başa çatıb. 2020-ci ilin martında isə SOCAR Midstream Operations Limited razılaşdırılmış keçid dövründə rəsmən CQBK-nin texniki operatoru olub. Həmin vaxtdan başlayan keçid prosesi 2021-ci ilin iyulunda müvəffəqiyyətlə yekunlaşıb. COVID-19-un yaratdığı problemlərə baxmayaraq, bp və SOCAR keçid prosesinin bütün aspektlərini səmərəli şəkildə həyata keçirmək üçün sıx əməkdaşlıq ediblər.

Ardı 3-cü səh.

◆ Qarabağ söhbətləri

# Keçmişdən qopan gələcək

## On yeddi yaşında Ağdamdan ayrılan Əli Əmirli əlli altı ildən sonra doğma yurda xatirələrin ağuşunda qayıtdı

Dağıntılar arasında dayandığı yer onun yurd yeridir. Bütün həyatı, əsli-kökü, qohum-əqrabası, keçmişi bu yerlə bağlıdır. Bu yer 30 ilə yaxın onu maqnit kimi özünə çəkib, amma getmək mümkünsüz olub. İşğaldan azad edilən yurd yerindən qalan indi yalnız daş parçalarıdır...

Dizləri taqətdən düşdüyündən hiss basmış daş parçalarından birinin üstündə oturur. Görmək üçün gəlib bu dağıntılar arasına çıxdığı yerdə onu uzaq uşaqlığına, əvvəlki Ağdama yalnız xatirələri apara bilər.

Yazıçı, Əməkdar incəsənət xadimi, professor Əli Əmirlinin "Qarabağ söhbətləri"ndəyik. Gözlərini uzaq məchulluğa dikib, öz-özüylə danışırmış kimi həmin xatirələrə baş vurur...

### Ömrümün on yeddi ili

- Adam xatirələrini danışmağa başlayırsa, deməli, qocalır. Bəlkə buna görədir ki, altmışa qədər keçmişə boylanmağı sevməmişəm, gələcəyə də heç vaxt möhtəşəm planlar qurub arzular sorağında olmamışam, düşünmüşəm ki, hər şey bu gündə, indidə həll olunur.

Ardı 6-cı səh.




XXXII Tokio Yay Olimpiya Oyunları

AZERBAIJAN

# İKİQAT QƏLƏBƏ!

## Güləşçimiz Rafiq Hüseynov erməni rəqibini məğlub edərək Olimpiadanın bürünc medalını qazandı

Güləş ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından da fərqlənir. Bir də tarixi kökü olan bu idman növü Azərbaycanda heç vaxt ənənəsini itirməyib.

Azərbaycan güləş məktəbinin yetirmələri olan Olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ciddi və ehtiyat edilən idmançılar sayılırlar.

Ardı 7-ci səh.

# “ASAN xidmət” innovasiya sahəsində Azərbaycan brendi kimi tanınır

## Prezident İlham Əliyev 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib





Dövlət başçısına 16 ölkədən 500-dən çox iştirakçının qatıldığı Qlobal Müdafiə Texnologiyaları Hakatonu və Vətən müharibəsində tvit siyasəti barədə də məlumat verildi. Qeyd edək ki, müharibə dövründə ilk yerdə dövlət başçısının tvitləri dayanıb. Bu tvitlərə 396 min baxış olub. #karabakhisazerbaijan həştəqi 800 mindən çox paylaşılmaqla bu mövzuda ən çox paylaşılan həştəq olub. Prezident İlham Əliyevə ASAN sosial innovasiyalar texnoparkı, Görmə məhdudiyyətli şəxslər üçün xüsusi eynək layihələri və ASAN ICESCO mükafatı barədə də məlumat verildi.



*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin ötən ilin dekabrında imzaladığı fərmanla yaradılan “YAŞAT” Fondunun dəstəyi ilə Vətən müharibəsi qazilərinin sağlamlıqlarının bərpa olunması istiqamətində çox mühüm işlər görülüb. Şəhid ailələri üzvlərinin və yaralıların 1152 müraciəti üzrə 3,8 milyon manat kreditləri “YAŞAT” Fondu tərəfindən ödənilib. 5667 müraciət üzrə şəhid ailəsi üzvlərinin və yaralı hərbçinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 22,6 milyon manat, bu qəbildən olan 2357 şəxsin tibb və xaricdə təhsil haqlarının ödənilməsi üçün isə 5.6 milyon vəsait ayrılıb. 120 ağır yaralı müalicə üçün Türkiyəyə göndərilib. Onların 64 nəfəri tam sağalıb, 56 nəfər isə hazırda müalicədədir. Bundan başqa, “Onlar bizə əmanət” layihəsi çərçivəsində Vətən müharibəsindən sonra dünyaya gələn 100 şəhid övladına 1000 manat məbləğində maddi yardım olunub, onların adına 5000 manat məbləğində depozit hesab açılıb.

Prezident İlham Əliyevin 2020-ci ilin noyabrında imzaladığı sərəncama uyğun olaraq yaradılan vahid məlumat bazasında Vətən müharibəsi zamanı mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı ətraflı məlumat yerləşdirilib.







# Polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışı keçirilib

Avqustun 3-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında və Əlahiddə Çevik Polis Alayında vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Kütləvi informasiya vasitələrində, o cümlədən DİN-in rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, nazirliyinə onlayn qaydada müraciət etmiş iddiaçılardan daha hazırlıqlı olan 194 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Onlardan 62 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş gənclər, 4-ü isə şəhid ailələrinin üzvləri olub.

Gənclərlə görüşdə çıxış edən nazir V.Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına mühüm



töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

Milli Məclisin iclasında

# Deputatın toxunulmazlığına xitam verildi





## Azərbaycan Respublikası Milli Məclisinin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi deputat Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına baxaraq, Azərbaycan Respublikası Milli Məclisi İntizam komissiyasının bu məsələyə dair rəyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinin II hissəsinə, Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin 22-ci maddəsinə, habelə “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinin üçüncü hissəsinə əsasən **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilsin.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 3 avqust 2021-ci il*

Avqustun 3-də Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sədr bildirib ki, Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş prokuroru iyulun 30-da Milli Məclisə təqdimatla müraciət edib. Təqdimatda parlamentin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi xahiş olunur.

Milli Məclisin Daxili Nizamnaməsinin 22-ci maddəsinin birinci hissəsinə görə, Baş prokurorun təqdimatına Milli Məclisdə 7 gün müddətində baxılmalıdır. Odur ki, Milli Məclisin 53 deputatının tələbi ilə növbədənkənar sessiya çağırılıb.

İclasda çıxış edən Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev bildirib ki, onun tərəfindən Milli Məclisə 55 saylı Xaçmaz şəhər seçki dairəsi üzrə parlamentin deputatı Eldəniz Səlimovun deputat toxunulmazlığına xitam verilməsi barədə təqdimat ünvanlanıb. Təqdimatın ünvanlanması üçün kifayət qədər əsaslar mövcuddur. Təqdimata Milli Məclisin İntizam komissiyasında baxılıb və müvafiq rəy verilib.

Baş prokuror bildirib ki, Milli Məclisin deputatı Eldəniz Səlimovla bağlı material Baş Prokurorluqda araşdırılıb və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb, istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb. Hazırda iş üzrə intensiv istintaq hərəkətləri aparılır. İstintaq hərəkətlərinin aparılması üçün Eldəniz Səlimovun toxunulmazlığına xitam verilməsi zəruridir.

İclasda çıxış edən Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov komissiyanın rəyini diqqətə çatdırıb. Komissiyanın rəyində deyilir ki, Milli Məclisin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi üçün kifayət qədər əsas var və məsələ Milli Məclisin plenar iclasının müzakirəsinə çıxarıla bilər.

İclasda çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, komitə sədrləri Musa Quliyev, Zahid Oruc, Tahir Rzayev, Bəxtiyar Əliyev, deputatlardan Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Erkin Qədirli, Tahir Kərimli, Aydın Mirzəzadə, Razi Nurullayev, İlham Məmmədov, Hikmət Məmmədov, Fəzail Ağamalı və Sabir Rüstəmxanlı gündəlikdəki məsələ barədə fikirlərini bildiriblər. Diqqətə çatdırılıb ki, Altıncı çağırış Milli Məclis fəaliyyətə başladığı gündən indiyədək spiker Sahibə Qafarovanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərib, pandemiya dövrü olmasına baxmayaraq, mühüm qərar və qanunlar qəbul edib, 44 günlük Vətən müharibəsi zamanı üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib. Qeyd olunub ki, Altıncı çağırış Milli Məclis Vətən müharibəsindəki möhtəşəm qələbəmizə şahidlik etmiş bir parlamentdir.

Sonra çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, sualları cavablandırıb.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Milli Məclisin deputatı olmaq yüksək şərəfdir, xüsusən də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kimi müdrik siyasi və dövlət xadiminin rəhbərlik etdiyi ölkədə millət vəkili olmaq daha çox böyük şərəf və həm də etimaddır.

Sədr vurğulayıb ki, möhtərəm İlham Əliyev xalqımızı Vətən müharibəsində qələbəyə çatdırmış bir liderdir. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası indiyə qədər möhtəşəm inkişaf yolu keçib, həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edib, bundan sonra daha böyük uğurlara imza atacaqdır.

Spiker qeyd edib ki, 2020-ci il martın 10-da Altıncı çağırış Milli Məclisin birinci iclasında möhtərəm Prezidentin etdiyi proqram xarakterli çıxış hamımızın yadındadır. Dövlət başçısı parlamentin fəaliyyətinin necə qurulması ilə bağlı tövsiyələrini söyləmiş, eyni zamanda, Milli Məclisin üzvləri qarşısında qoyulan tələbləri də göstərmişdi. Cənab Prezident demişdi: “Yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar, görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni onların arxasında, necə deyərlər, heç bir mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər”.

Sahibə Qafarova diqqətə çatdırıb ki, ötən bir il yarıma yaxın dövrdə biz birlikdə parlamentin fəaliyyətini dövlət başçısının çıxışında irəli sürülmüş tövsiyələr əsasında qurmağa çalışmışıq. Milli Məclis möhtərəm Prezidentin həyata keçirdiyi əsaslı islahatların ön sırasında olan dövlət qurumlarından birinə çevrilib.

Hər birimiz yaxşı başa düşməliyik ki, qanunvericilik orqanının üzvü, deputat olmaq həm də ciddi məsuliyyət deməkdir. Deputatın qəbul olunmuş qanunlara, icra orqanlarının qərarlarına necə əməl etməsi onun həm siyasi və ictimai xadim, həm də xalqın diqqət mərkəzində olan bir insan kimi yetkinliyini göstərir. Deputat özünü heç kəsdən üstün tutmamalı, danışığı, rəftarı ilə başqalarına nümunə olmalıdır.

Milli Məclisin Sədri deputatın bu ada yaraşmayan hərəkəti ilə əlaqədar dərin təəssüfünü bildirib. Diqqətə çatdırıb ki, məsələnin müzakirəsi göstərdi ki, Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi barədə Baş prokurorun təqdimatında kifayət qədər əsaslar vardır. İntizam komissiyasının rəyi də bunu göstərdi.

Sonra deputat Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq təsdiqlənib.

Spiker Sahibə Qafarova Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Milli Məclisin növbədənkənar sessiyasının iclası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Azərbaycan dövlətinin yanğınların söndürülməsinə göstərdiyi dost və qardaş dəstəyi təqdirəlayiqdir



Avqustun 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qardaş ölkənin səfirini Azərbaycandakı təyinatı münasibətilə təbrik edən Mübariz Qurbanlı hər sahədə yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə münasibətlərinin daim gücləndiyini, eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olan iki ölkənin xalqları arasında əlaqələrin daim inkişaf etdiyini diqqətə çatdırıb. O bildirib ki, Türkiyə-Azərbaycan arasında tarixboyu formalaşmış qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi, bütövlükdə türk-İslam dünyasının mədəni-mənəvi vəhdətinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi yolunda iki ölkə hər zaman səy göstərib və göstərməkdə də davam edəcək.

Son günlər Türkiyənin bir sıra regionlarını əhatə edən yanğınlara görə dərin kədər və üzüntüsünü dilə gətirən M.Qurbanlı bu çətin günlərdə də Azərbaycanın qardaş Türkiyənin yanında olduğunu deyib, həlak olanların doğmalarına başsağlığı verib.

Komitə sədri 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdə - Azərbaycanın haqlı mübarizəsində də Türkiyənin, həmişə olduğu kimi, xalqımızı yalnız qoymayaraq bütün dünyaya Qarabağın Azərbaycanın əzəli torpaqları olduğunu, heç bir ölkənin Azərbaycana mane ola bilməyəcəyini bəyan etməsini, "Bir millət, iki dövlət" prinsipinə sadiq olaraq müharibə dövründə həm mənəvi, həm də siyasi müstəvidə ölkəmizin yanında olmasını yüksək qiymətləndirib.

Eyni zamanda görüş zamanı Dövlət Komitəsinin sədri dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, ölkəmizdə hökm sürən tolerantlıq mühiti, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında, eləcə də bu münasibətlərin tənzimlənməsi sahəsində fəaliyyət göstərən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi barədə məlumat verib.

Səfir də öz növbəsində Dövlət Komitəsinin sədrinə səmimi təbriki üçün təşəkkür edib. O, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətlərindən, bu əlaqələrin sağlam və davamlı inkişafından danışaraq bildirib ki, fəaliyyət göstərəcəyi müddət ərzində bu əlaqələrin daha da genişlənməsi üçün səylərini əsirgəməyəcək. Son günlər Türkiyədə baş verən meşə yanğınlarına toxunan Cahit Bağçı Türkiyənin güclü dövlət olduğunu və bu sınaqdan üzüağ çıxacağını, Azərbaycan dövlətinin yanğınların söndürülməsinə ilk günlərdən göstərdiyi dost və qardaş dəstəyinin təqdirəlayiq olduğunu vurğulayıb.

Səfir eyni zamanda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və iki ölkə arasında tarixi Şuşa Bəyannaməsinin imzalanmasının əhəmiyyətinə toxunub.

Dövlət Komitəsinin fəaliyyəti barədə danışan səfir bu sahədə ikitərəfli əlaqələrin daha da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşün sonunda səfirə Dövlət Komitəsinin nəşr etdirdiyi Azərbaycanın multikultural və milli-mənəvi dəyərlərindən bəhs edən kitablar hədiyyə olunub.

# Əl-Cəzirənin mərkəz direktoru: "Əlaqələrin inkişaf etdirilməsi üçün birgə layihələrin icrasına xüsusi önəm verilir"

Avqustun 3-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində (MEDİA) ölkəmizdə səfərdə olan Əl-Cəzirə Media Şəbəkəsinin İctimai Azadlıqlar və İnsan Haqları Mərkəzinin direktoru Sami Əl-Hacc ilə görüş keçirilib.



MEDİA-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə agentliyin icraçı direktoru Əhməd İsmayılov qonağa qurumun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Ə.İsmayılov Medianın İnkişafı Agentliyi, ADA Universiteti, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə Əl-Cəzirə Media Şəbəkəsinin Azərbaycan media nümayəndələri üçün "Jurnalistlərin münaqişə zonasında davranışları: Təhlükəsizlik və mühafizə qaydaları" mövzusunda keçirilən təlim proqramının əhəmiyyətini qeyd edib.

Əl-Cəzirə Media Şəbəkəsinin İctimai Azadlıqlar və İnsan Haqları Mərkəzinin direktoru Sami Əl-Hacc əlaqələrin inkişaf etdirilməsi üçün birgə layihələrin icrasına xüsusi önəm verdiyini bildirib.

# CQBK-nin texniki operatorluğunun bp-dən SOCAR-a ötürülməsi prosesi başa çatdı

*Əvvəli 1-ci səh.*



SOCAR prezidenti Rövnəq Abdullayev "Cənub qaz dəhlizi"nin bütün seqmentlərində SOCAR ilə bərabər iştirak edən bp şirkətinə səmərəli əməkdaşlığa görə təşəkkür etdiyini bildirmiş və demişdir: "Cənubi Qafqaz Boru Kəməri şirkətinin 6 illik uğurlu kommersiya operatorluğundan sonra SOCAR kəmərin texniki operatorluğunu öz üzərinə götürür. Bu, Azərbaycan dövlət şirkətinin beynəlxalq qaz kəmərinin idarə edilməsi istiqamətində əldə etdiyi daha bir böyük nailiyyətdir".

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons dəqiq və kompleks şəkildə həyata keçirilmiş keçid prosesinin ardınca ÇQBK-nin texniki operatorluğunun SOCAR-a uğurlu ötürülməsindən məmnunluq duyduqlarını bildirmişdir: "SOCAR kəmərin kommersiya operatoru kimi öz zəngin təcrübəsini ortaya qoyub və biz əminik ki, texniki operatorluğu da eyni effektivlik və təcrübə ilə həyata keçirəcək. "Şahdəniz" və CQBK layihələrinin ən böyük hissədarı olaraq, biz üzərinə düşən yeni vəzifənin həyata keçirilməsində SOCAR-ı dəstəkləmək məqsədilə onunla sıx əməkdaşlığımızı davam etdirmək əzmindəyik və SOCAR-a böyük uğur arzulayırıq".

SOCAR Midstream şirkətinin icraçı direktoru Fuad Əhmədov CQBK-nin texniki operatorluğunu qəbul etməyin böyük məsuliyyət olduğunu vurğulayaq demişdir: "Texniki operatorun xələfi kimi biz bp-nin boru kəmərinin operatoru olduğu dövrdə nümayiş etdirdiyi təhlükəsiz, effektiv, ətraf mühit və cəmiyyət üçün əlverişli fəaliyyətini təmin etmək məqsədi ilə bp və digər tərəfdaşlarla sıx əməkdaşlıq etməkdə davam edirik. Əminik ki, birgə işimiz kəmərin keçdiyi ölkələrə, hissədarlara, əməkdaşlara və kəmərin keçdiyi yerlərdə yaşayan icmalara fayda verəcək".

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə ixrac boru kəmərləri üzrə sahə əməliyyat meneceri Eldar Qaziyev əməliyyat təhlükəsizliyinə sadiqliyin və işçi heyətin yüksəkkeyfiyyətli bacarıqlarının SOCAR-ın texniki operatorluğu dövründə də davam edəcəyinə əmin olduğunu bildirmişdir: "Uğurlu keçidə nail olmaq üçün hər iki komandamızın nümayiş etdirdiyi birgə iş mükəmməl tərəfdaşlıq və sıx əməkdaşlığın nümunəsidir. Biz keçidin kəmərin fəaliyyətinə təsir etmədən təhlükəsiz və rahat tamamlanmasına görə xüsusi qürur duyur və bunu mümkün etdikləri üçün SOCAR və bp komandalarına təşəkkür edirik".

Qeyd edək ki, CQBK dünya səviyyəli boru kəməridir və 2006-cı ildən etibarən təhlükəsiz, etibarlı və səmərəli şəkildə fəaliyyət göstərməklə Azərbaycan, Gürcüstan və Türkiyənin regional bazarlarına qaz nəql edir. Kəmər Azərbaycanda 443 kilometr, Gürcüstanda 248 kilometr məsafə boyu uzanır. Boru kəməri sisteminə həmçinin Azərbaycanda iki kompressor stansiyası, Gürcüstanda isə iki kompressor stansiyası və iki nəzarət-ölçü qovşağı daxildir.

CQBKŞ şirkətinin səhmdarları bp (28,8 faiz), TPAO (19 faiz), SOCAR və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (16,7 faiz), PETRONAS (15,5 faiz), LUKOIL (10 faiz) və NICO (10 faiz) şirkətləridir.

Bu ilin birinci yarısında CQBK-nin gündəlik orta ötürücülük gücü 46,51 milyon kubmetr qaz təşkil etmişdir.

"Şahdəniz-2" çərçivəsində əlavə hasilat həcmlərini əhatə etmək məqsədilə CQBK sistemi Türkiyəyə (ildə 6 milyard kubmetr) və Avropaya (ildə 10 milyard kubmetr) qaz ixrac etmək üçün genişləndirilmişdir. Kəmərin genişləndirilmiş hissəsi 2018-ci ilin iyun ayında Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlamışdır. 2020-ci ilin dekabr ayından başlayaraq şirkət ilk dəfə olaraq "Şahdəniz" qazını Avropaya ixrac etmişdir.

***Flora SADIQLI, "Azərbaycan"***

# Avrasiyada yeni güc mərkəzi yaranır

*Əvvəli 1-ci səh.*

## Müharibə dönəmi və ondan sonrakı reallıqlar

İyulun 27-də təməli qoyulan üçtərəfli Azərbaycan-Türkiyə-Pakistan parlamentlərarası əməkdaşlıq platforması dost ölkələr arasında münasibətlərin daha da inkişaf etdirilməsini hədəfləyir. Ölkəmizin regionda və beynəlxalq münasibətlərdə nüfuzu günbəgün artır. Azərbaycanın təşəbbüsü ilə dövlət başçıları, xarici işlər nazirləri səviyyəsində əməkdaşlıq formatları sırasına parlamentlərarası platformanın da daxil edilməsi və ilk görüşün Azərbaycanda keçirilməsi sonda Bakı Bəyannaməsi ilə nəticələndi. Əlbəttə ki, Azərbaycanın artan nüfuzunda 44 günlük İkinci Qarabağ müharibəsinin qələbəmizlə başa çatmasının böyük xidməti var.

Tarixi köklərə və münasibətlərə əsaslanan Azərbaycan-Türkiyə-Pakistan münasibətləri indi yeni mərhələyə qədəm qoyub. Bunu hələ Vətən müharibəsinə qədərki hadisələr, müharibə dönəmi və ondan sonrakı reallıqlar da təsdiqləyir.

Vətən müharibəsində Azərbaycana ilk mənəvi dəstək verən məhz bu iki dost ölkə idi. Müstəqilliyimizi ilk tanıyanlar da Türkiyə və Pakistan olmuşdu.

Pakistan və Türkiyə həmişə Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın mövqeyindən çıxış edib, münaqişənin ölkəmizin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı çərçivəsində həllinin tərəfdarı olublar. Ölkəmizə birmənalı dəstəklərini nümayiş etdiriblər. Pakistan bu günə qədər də Ermənistanla diplomatik münasibətlər qurmayıb və işğalçını bir dövlət kimi tanımayıb.

Dost və qardaş ölkələr nə qədər ki təcavüzkar Ermənistan ordusu işğal olunmuş Azərbaycan ərazilərindən çıxmayıb, Ermənistanla diplomatik münasibətlərin mümkünsüz olduğunu dəfələrlə bəyan etmişdilər.

Pakistan ali qanunverici orqan - parlament səviyyəsində Xocalı qətliamını soyqırımı aktı kimi tanıyan ölkələrdən biridir. Azərbaycan da öz növbəsində hər zaman Türkiyə və Pakistanla əməkdaşlığa önəm verib, istənilən məsələdə bu ölkələrə dəstək olub.

44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstək bizi qələbəyə ruhlandırdı. Müharibə getdiyi günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tez-tez "Azərbaycan yalnız deyil, Türkiyə hər zaman Azərbaycanın yanındadır", - deyə açıqlamalar verirdi.

Türkiyə və Pakistan ölkəmizin mənafeyini bütün beynəlxalq təşkilatlarda ardıcıl şəkildə müdafiə edib. Pakistan 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycana dair 822 nömrəli qətnaməsinin qəbul olunduğu iclasa sədrlik edib.

## Öz regionlarında söz sahibi olan ölkələr

Prezident İlham Əliyev iyulun 27-də Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Pakistan, Türkiyə və Azərbaycan parlamentlərinin sədrlərinin üçtərəfli görüşünün əhəmiyyətini önə çəkərək bu mühüm addımın qardaş ölkələr arasında üçtərəfli tərəfdaşlığın inkişafı işinə xidmət edəcəyini xüsusi vurğulamışdır.

Türkiyə, Pakistan və Azərbaycan hər üç ölkənin taleyüklü dönəmlərində həmişə bir-birilərini dəstəkləyən dost ölkələrdir. Bu ölkələr daim dostluq prinsiplərinə söykənərək qərarlar qəbul edib, bir- birilərinə bağlı olublar. Bu dostluq prinsiplərinə söykənərək yaradılan parlamentlərarası birlik də illər keçdikcə daha da möhkəmlənərək təkmil qanunların qəbuluna və daha sıx münasibətlərə rəvac verəcək.

Bu formatın yaradılması və möhkəmləndirilməsi dünya siyasi arenasında hər üç dövlətin nüfuzunun artmasını və həqiqətlərini birlikdə dünyaya çatdırmağı, inandırmağı təmin edəcək.

Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysər ölkəsində Azərbaycan və Türkiyə mədəniyyət mərkəzlərinin yaradılması təşəbbüsü ilə də çıxış edib. İmzalanan Bakı Bəyannaməsi üç ölkənin gələcək əlaqələrinin inkişafında böyük rol oyanyacaq. Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin ikinci üçtərəfli görüşünün 2022-ci ildə İslamabad şəhərində keçirilməsinin planlanlaşdırılması gələcək münasibətlərin uğurlu olacağından xəbər verir. Azərbaycan, Türkiyə və Pakistan bu gün regionun aparıcı, söz sahibi olan ölkələrindəndir. Dünya siyasətinin müəyyənləşdirilməsində bu ölkələrin xüsusi yeri və rolu var.

Azərbaycanla Türkiyə və Pakistan arasında münasibətlər özünün yeni inkişaf mərhələsinə daxil olur. Bu, Milli Məclis tərəfindən parlamentlərarası üçtərəfli əməkdaşlıq formatının təsis edilməsi, tarixi Bakı Bəyannaməsinin imzalanması ilə bir daha təsdiq edildi. Artıq ortaq maraqları və tarixi dəyərləri birləşdirən Azərbaycan-Türkiyə-Pakistan dünya miqyasında ən yaxın strateji müttəfiqlərdir.

Bakı Bəyannaməsində Azərbaycan, Pakistan və Türkiyənin bölgədəki sülh, sabitlik və inkişafa bundan sonra da diqqət ayırmaq, təhlükəsizlik və rifahın təminatına çalışmaq, terrorla mübarizədə iş birliklərinə önəm vermək, sülh şəraitində yaşamağı reallaşdırmaq, ölkələrin qarşı-qarşıya olduğu saysız çətinliyin aradan qaldırılması yolunda işlər görmək barədə məsələlər öz ifadəsini tapıb.

Görünən odur ki, qarşıdakı illərdə və ümumiyyətlə, gələcəkdə Azərbaycan-Türkiyə-Pakistan dostluğu və müttəfiqliyi regionda təhlükəsizliyin təminatçısı olacaq.

***Ramilə QURBANLI, "Azərbaycan"***

# Azərbaycan qlobal təhlükəsizlik indeksi üzrə 15 pillə irəliləyib

*Əvvəli 1-ci səh.*



Uzun illər müharibə şəraitində yaşayan Azərbaycan üçün kibertəhlükəsizlik məsələləri digər ölkələrə nisbətən daha önəmlidir. Bu səbəbdən həm düşmənə qalib gəlmək, həm də daha sürətlə inkişaf etmək üçün təhlükəsizlik məsələlərinə xüsusi diqqət ayrılır. Təsadüfi deyil ki, bu sahədə qazanılan uğurlarımızı beynəlxalq reytinq təşkilatları da qeyd edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Məsumə Talıbova öz şərhində göstərir ki, Azərbaycan beynəlxalq səviyyədə ən öncül hesabatlardan sayılan Beynəlxalq Telekommunikasiya İttifaqının "Qlobal kibertəhlükəsizlik indeksi 2020" hesabatı üzrə 15 pillə irəliləyərək 40-cı yerə yüksəlmişdir. Ölkəmiz ümumilikdə 89,31 xal ilə MDB-də Rusiya və Qazaxıstandan sonra 3-cü yerdə qərarlaşıb. Keçmiş sovet respublikalarından Gürcüstan və Ukraynanı, Avropa ölkələrindən İsveçrə, İrlandiya, İslandiya, Sloveniya, Çexiyanı geridə qoyan Azərbaycan bu sahədə qabaqcıl nümunələrin tətbiqini həyata keçirməklə davamlı inkişaf nümayiş etdirmişdir. Ölkəmizin rəqəmsal sahəsində sıx əməkdaşlıq etdiyi Estoniyanın cari il indeks üzrə Avropa ölkələri arasında 3-cü pillədə yer alması da bunu təsdiqləyir. Məlumat üçün bildirək ki, reytinqdə ilk yeri ABŞ, 2-ci yeri isə Böyük Britaniya və Səudiyyə Ərəbistanı tutub.

Sonda onu da qeyd edək ki, dövlətlərin kibertəhlükəsizlik səviyyəsini 5 əsas istiqamət - hüquqi baza, texniki hazırlıq, təşkilati məsələlər, kadr potensialı, eyni zamanda kommunikasiya və əməkdaşlıq istiqamətləri üzrə qiymətləndirən bu hesabat ölkələrarası kibertəhlükəsizlik səviyyəsini qiymətləndirərək hər bir ölkə üçün boşluqların və çağırışların müəyyənləşdirilməsi, inkişaf üçün prioritetlərin qoyulması, həmçinin zəif və güclü tərəflərin təsbit olunması ilə ölkələrarası bilik mübadiləsinin aparılması üçün çox böyük əhəmiyyət daşıyır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Qoşunlarda yay tədris dövrü başlayıb







Cari ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində yay tədris dövrü başlayıb. Tədris dövrü üçün əsas məqsəd və vəzifələr, eləcə də onların icra qaydaları hərbi hissələrdə keçirilən tədbirlərdə diqqətə çatdırılıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, ordumuzda tədris prosesi Ali Baş Komandanın tələblərinə, müdafiə nazirinin əmr və sərəncamlarına müvafiq olaraq, döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə quruda, dənizdə, havada real təhdid və risklər, o cümlədən Vətən müharibəsində qazanılmış döyüş təcrübəsi nəzərə alınmaqla keçiriləcək. Yay tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazasının vəziyyəti yoxlanılıb.

Tədris dövrünün ilk günlərində bütün hərbi hissələrdə döyüş hazırlığı məşğələləri başlayıb.

***AZƏRTAC***

# IV regional inkişaf proqramı uğurla icra olunur

# Burada gül-çiçəkdir hər tərəf, hər yan

## Lənkəran bu gün də "Cənub mirvarisi"dir

**Təbiət insanı formalaşdırır, zənginləşdirir fikri ilə razılaşmamaq mümkün deyil. Çünki insan ana dediyimiz təbiətin övladı və bir parçasıdır. Elə buna görə də lənkəranlılar bu torpağın özü qədər səxavətli və qurub-yaradandırlar.**

























Böyük yaradan Lənkərandan heç nəyi əsirgəməyib. Zümrüd meşələri, silsilə dağları, gah coşub kükrəyən, gah da lal axan çayları, bulaqları, şəlalələri, bol nemətli, mavigözlü dənizi var bu diyarın. Təkcə bunlarmı? Əlbəttə ki, yox. Subtropik iqlimə malik olan Lənkəranda ətirli çay, çəltik, bağlarında limon, naringi, portağal, feyxoa və digər qiymətli nemətlər yetişir. Dünyanın bir çox ölkələrindən quşlar qışlamaq üçün payızda buradakı Qızılağac qoruğuna gəlir. Flora və faunası ilə zəngin olan Hirkan qoruğunun böyük bir hissəsi Lənkəranın payına düşür.

Bütün bu gözəlliklər haqqında şairlər şeirlər yazıb, bəstəkarlar nəğmələr bəstələyib, rəssamlar tablolar yaradıblar. Təsadüfi deyil ki, böyük rus şairi N. Tixonov Lənkəranı "Cənub mirvarisi" adlandırmışdır. Eyni zamanda bu diyar keşməkeşli bir inkişaf yolu keçmişdir.

Lənkəranın tarixi qədimdir. Ərazidəki çoxsaylı abidələr, qalalar da bunu sübut edir. Lənkəran cənub istiqamətində Azərbaycanın həmişə alınmaz qalası olmuşdur. Özünü qorumaq üçün buranın insanları həmişə əllərindən gələni etmişlər, istər qədim və orta dövrlərdə, istər xanlıqlar, istərsə də sonrakı illərdə.

Müstəqilliyimizin ilk illərində bunun bir daha şahidi olduq. Amma budəfəki mübarizə o qədər də asan deyildi. Separatçı qüvvələr at oynadanda onların bütün cəhdlərinin qarşısı Lənkəranın sağlam qüvvələri tərəfindən bu dəfə də qətiyyətlə alındı.

70 il ömür sürən sosializm sisteminin dağılması nəticəsində ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da iqtisadiyyat tənəzzül etdi, istehsal sahələri fəaliyyətini dayandırdı. İş yerlərini itirən adamlar ailələrini dolandırmaq üçün olmazın çətinliklər ilə üzləşdilər. Mövcud infrastruktur baxımsızlıq üzündən bərbad hala düşdü. Lənkəran şəhərinə yalnız günün müəyyən vaxtlarında işıq verilirdi, özü də aşağı gərginlikdə.

Elə həmin illər böyük Yaradan sanki Ulu Öndər Heydər Əliyevi səmadan yerə endirdi. Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın həyatında dönüş yarandı. "Əsrin müqaviləsi" imzalandı, islahatlar həyata keçirildi, yaranan sabitliyi görən əcnəbi investorlar Azərbaycana sərmayə qoymağa başladılar.

2003-cü ilin oktyabrında Prezident seçilən İlham Əliyev isə neftdən gələn ilk gəlirləri ən mühüm sahələrin, o cümlədən ordumuzun güclənməsinə, öz dədə-baba yurdlarından didərgin düşmüş qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına, regionların sosial-iqtisadi inkişafına və digər mühüm məsələlərə yönəltdi. 2004-cü ilin fevral ayının 11-də təsdiqlənən regionların sosial-iqtisadi inkişafı I Dövlət Proqramı ilə hər yerdə, o cümlədən Lənkəranda quruculuq işlərinə start verildi. Beləliklə, bu cənub şəhəri yeni inkişaf dövrünə qədəm qoydu.

Küçələr, parklar, xiyabanlar abadlaşdırıldı. Birinci və onun ardınca qəbul edilən ikinci, üçüncü və hazırda həyata keçirilən sayca dördüncü dövlət proqramları çərçivəsində Lənkəran abadlaşdı, inkişaf etdi, tanınmaz oldu.

Ötən illər ərzində rayonda görülən işləri bir yazıya sığışdırmaq mümkün deyil. Amma elələri var ki, onları qeyd etməmək olmaz. Lənkəran Beynəlxalq Hava Limanı, Olimpiya İdman Kompleksi, İstisu Sağlamlıq Mərkəzi, Müalicə-Diaqnostika Mərkəzi, Uşaq Sağlamlıq, habelə Gənclər Mərkəzi, Əlillərin Reabilitasiya Mərkəzi, Bayraq Meydanı, əlil və şəhid ailələri üçün 90, evləri qəzalı vəziyyətdə olan sakinlər üçün 100 mənzilli 4 yaşayış binasının tikilməsi, Lənkəran Dövlət Dram Teatrının, 350 çarpayılıq Rayon Mərkəzi Xəstəxanasının, Şəhər Mədəniyyət Mərkəzinin, Tarix-Diyarşünaslıq Muzeyinin əsaslı şəkildə yenidən qurulması, Lənkəran-2 Elektrik Yarımstansiyasının istismara verilməsi, 17 hotel, 10 istirahət mərkəzinin, 5 çay, 2 konserv, 3 düyü emalı, xalçaçılıq müəssisəsinin fəaliyyətə başlaması, Lənkəran Dövlət Universiteti üçün əlavə 2 tədris korpusunun, yataqxananın, rayon prokurorluğu üçün yeni inzibati binanın inşası, istehsal gücü ildə 18 min ton olan yeni qənnadı məhsulları fabrikinin, məcburi köçkünlər üçün çoxmərtəbəli yaşayış binasının tikilməsi, 167 kilometrlik kənd yollarının, şəhərin 13 küçəsində 11 kilometrlik asfaltlama işinin aparılması həmin illər Lənkəranda görülən işlərin yalnız yada düşənləridir.

Amma bunlardan əlavə, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1200 şagirdlik Liman şəhər 1 saylı, 240 şagirdlik Şağlaküçə, 220 şagirdlik Girdəni, 260 şagirdlik Digah, 192 şagirdlik Tatoba, 320 şagirdlik Səpnəkəran, 100 şagirdlik Tuado, 100 şagirdlik Bürcəli, 192 şagirdlik Daşdatük kənd məktəbləri üçün müasir tələblərə cavab verən yeni binalar da tikilmişdir. Eyni zamanda Osman Mirzəyev adına qarışıq tipli uşaq evi, inteqrasiya təlimli internat gimnaziyası əsaslı təmir edilmiş, 2020-ci ildə isə 360 şagirdlik Viravul kənd 2 saylı, 632 şagirdlik Haftoni və 420 şagirdlik Nərimanabad qəsəbə tam orta məktəblərinin yeni binaları qapılarını şagirdlərin üzünə açmışdır. Ümumiyyətlə, 2003-2020-ci illərdə rayonda 38 məktəb tikilmiş, 50 məktəbdə təmir-tikinti işləri aparılmış, 5 məktəb əsaslı təmir edilmiş, 7 modul tipli məktəb quraşdırılmışdır. Hazırda şəhər 7 saylı və Zövlə kənd tam orta məktəblərində əsaslı təmir işləri aparılır.

Rayonda hazırda elektrik enerjisi ilə təchizatda heç bir çətinlik yoxdur. Həmçinin rayon ərazisinin 80 faizdən çoxu qazla təchiz olunmuşdur. Əhalinin içməli su ilə təminatında əsaslı dönüş yaranmışdır. Belə ki, 257 kilometr içməli su şəbəkəsi inşa edilmiş, hər bir evə su sayğacı qoyulmuşdur.

Subtropik iqlim şəraitinə malik olan Lənkəranda yetişən limon, portağal, çay və digər subtropik meyvələr onun "vizit kart"ıdır. Prezident İlham Əliyevin rayona göstərdiyi diqqət və qayğı nəticəsində digər sahələrdə olduğu kimi, kənd təsərrüfatında da əsaslı dönüş yaranmışdır. Dövlət başçısının sədrliyi ilə 2017-ci il sentyabrın 3-də Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının daha da artırılması məsələlərinin geniş müzakirə edildiyi respublika müşavirəsində bu barədə yol xəritəsi irəli sürülmüşdür. Müşavirədə qeyd olunmuşdur ki, kənd təsərrüfatının bütün ənənəvi sahələri inkişaf etdirilməlidir. Bu məsələ eyni zamanda regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında da öz əksini tapmışdır. Məqsəd isə birdir: rayonlarda infrastruktur layihələrini həyata keçirmək, sahibkarlıq üçün münbit şərait yaratmaq, ölkə iqtisadiyyatını şaxələndirərək inkişaf etdirmək, yeni iş yerləri açmaq, ölkəni ekoloji təmiz ərzaq məhsulları ilə təmin etmək və s. 2018-ci ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı IV Dövlət Proqramında həmin məsələlərin davamı əksini tapmışdır.

Lənkəranda çay plantasiyalarının min hektara çatdırılması üçün fermerlər səylə çalışırlar. Onlardan biri də Araz Yağubovdur. Onun "Yaşıl çay" təsərrüfatında keyfiyyətli məhsul yetişdirilir. 100 nəfərdən çox işçinin çalışdığı təsərrüfatın özünün çay fabriki var. Ekoloji cəhətdən təmiz çay məhsulu daxili bazarla yanaşı, xarici ölkələrə də ixrac olunur.

Sitrus meyvə bağlarının genişləndirilməsi ilə əlaqədar rayona daha məhsuldar sortlar gətirilmişdir. Dünyanın 5 ölkəsində - ABŞ, Braziliya, Yaponiya, Koreya, Fransada yetişdirilən nadir Hallobonq sitrus meyvəsi artıq Azərbaycanda - Lənkəranda da yetişdirilir. Şaxtaya davamlı, məhsuldarlığı kifayət qədər yüksək olan bu bol vitaminli meyvə sağlamlıq üçün olduqca faydalıdır.

Lənkəranda sitrus meyvələrinin başqa növləri də becərilir. İstisu qəsəbəsində yaşayan Rəftarə Şükürova 15 ilə yaxındır ki, öz fermer təsərrüfatında feyxoa və kivi yetişdirməklə məşğuldur. Hər il ölkəmizin və Rusiyanın bazarlarına min tonlarla Lənkəranda yetişdirilən sitrus meyvələri çıxarılır. Bu il də bağlarda meyvə boldur.

Çəltikçilik Lənkəran üçün ənənəvi bitkidir. Ötən əsrin 60-cı illərinədək burada becərilmiş "Haşimi", "Həsənli", "Ənbərbu", "Qırmızı Ənbərbu", "Çampo", "Sədri" və digər düyü növləri özünəməxsus dadları ilə seçilmişdir. Aqrar sahəyə olan dövlət dəstəyi sayəsində lənkəranlılar yenidən bu gəlirli sahəyə üz tutmuşlar. Hazırda çəltikçilikdə 1200 nəfərdən çox işçi çalışır. Çəltiyin emalı üçün rayonda zavod fəaliyyət göstərir.

Tarixin hansı səhifəsini vərəqləsək, orada bu torpağın oğullarının göstərdiyi şücaət və qəhrəmanlığın şahidi olarıq. İkinci Dünya müharibəsində faşistlərə divan tutan iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun keçdiyi döyüş yolu hər bir lənkəranlı gənc üçün hünər və qürur mənbəyidir. İstər 1990-cı illərdə faşist xislətli erməniləri Qarabağı işğal edərkən, istərsə də İkinci Qarabağ savaşında Lənkəranın mərd oğulları da silaha sarılıb Vətənin müdafiəsinə qalxdılar. Zəfər savaşında yüzlərlə lənkəranlı gənc döyüşə yollandı və onlardan 66 nəfər şəhidlik zirvəsinə yüksəldi.

Bu gün rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, əmək kollektivləri hər bir şəhidə böyük rəğbət göstərir, onların xatirəsini əziz tuturlar. Şəhidlərin adlarının əbədiləşdirilməsi məqsədilə tədbirlər həyata keçirilir, qazilərin sağlamlığının bərpası, şəhid ailələrinin, habelə müharibə iştirakçılarının ehtiyacının ödənilməsi diqqət mərkəzində saxlanılır.

Vətən müharibəsi başa çatandan sonra hər yerdə olduğu kimi, Lənkəran Rayon İcra Hakimiyyətində də xüsusi şöbə yaradılmışdır. Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan baş leytenant Ramin Dövlətov həmin şöbənin müdiri təyin edilmişdir. Bu şöbənin xətti ilə həyata keçirilən tədbirlər hər bir lənkəranlı gəncdə vətənpərvərlik hissinin yüksəlməsinə xidmət edir. Bunun nəticəsidir ki, hər gün neçə-neçə gənc orduda xidmət etmək arzusunda olduqları barədə Lənkəran Şəhər Hərbi Səfərbərlik və Çağırış Şöbəsinə müraciət edir.

Məlum olduğu kimi, koronavirus pademiyası bütün sahələrə, o cümlədən turizmin inkişafına əngəllər törətməkdə davam edir. Nəinki gəzmək, istirahət etmək, hətta müalicə üçün insanlar istədikləri yerə getmək imkanından məhrumdurlar. Virusun çəkilib gedəcəyinə ümidli olduğumuz zaman xəbər çıxır ki, onun yeni bir növü peyda olub. Ancaq heç kim yenə də ümid və inamını itirmir. Hamı inanır ki, elmin, təbabətin gücü tarixin bütün dövrlərində olduğu kimi, yenə öz sözünü deyəcək, adamlar yenə sağlam həyat tərzi yaşayacaq, istədikləri vaxt istədikləri yerlərə səyahət edəcəklər.

Belə yerlərdən biri də həmişə qonaqqaralı olan Lənkərandır. Əlverişli iqlimə, təmiz havaya, zəngin təbii sərvətlərə və nadir tarixi abidələrə malik olan Lənkəranda turizmin inkişafı üçün mühüm işlər görülmüşdür. Rayonda bu gün "Qala", "Qızıl tac", "Palıdlı sahil", "Bəşəri", "Xanbulan" turizm istirahət mərkəzləri, Haftoni qəsəbəsində təbii İstisu pansionatı, Hirkan Milli Parkı, "Qafqaz sahil" hoteli və s. fəaliyyət göstərir. Həmin obyektlərdə turistlərə yüksək xidmət göstərilir.

Bir sözlə, Lənkəran inkişaf edir, abadlaşır, "Cənub mirvarisi" statusunu inamla qoruyur. Bunları gördükcə isə duyğulanmamaq olmur:

*Uzanır silsilə Talış dağları,*
*Naringi, portağal, limon bağları.*
*Allahın payıdır sərvəti, varı,*
*Burda gül-çiçəkdir hər tərəf, hər yan,*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

*Çağlayır sevincdən o mavi Xəzər,*
*Bərq vuran suları hüsnünü bəzər.*
*Belə görkəminə dəyməsin nəzər,*
*De harda tapılar belə bir məkan?*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

*Çayı məlhəm olur ürək yananda,*
*Yanında dilimli limon olanda.*
*İçsən, durulacaq damarda qan da.*
*Tapılar qoynunda hər dərdə dərman,*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

*Süfrəsin bəzəyən ləvəngisi var,*
*Dadı damaqlarda hər zaman qalar.*
*İlboyu qonaqlı-qaralı olar,*
*Qapısı açıqdır hər saat, hər an,*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

*Dəmirağacına tay varsa, gətir,*
*O ancaq bu eldə, bu yurdda bitir.*
*Yayın istisində açaraq çətir*
*Kölgəsi xəstəyə verər təzə can,*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

*Hüsnü başdan-başa bir tamaşadır,*
*İnsanla təbiət burda qoşadır.*
*Adama xoş ovqat, xoş gün yaşadır*
*Xəzərdən gün çıxıb söküləndə dan,*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

*Gəzib yer üzünü hey ölkə-ölkə,*
*Dedim ki, cənnəti taparam, bəlkə.*
*Çökdü gözlərimə hər yerdə kölgə.*
*Demə, bura imiş cənnət də, inan,*
*Gözəllər gözəli, gözəl Lənkəran.*

**Seyran CAVADOV,**
**"Azərbaycan"**

# Sarsılmaz qardaşlıq və həmrəylik nümunəsi

## Azərbaycanın Türkiyədə olan yanğınsöndürənlərinin fəaliyyəti yüksək qiymətləndirilir



Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə göndərilən Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələri yanğınların söndürülməsi əməliyyatlarını uğurla davam etdirirlər.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yanğınlarla əlaqədar Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin rəhbərliyi ilə nazirliyin məsul vəzifəli əməkdaşları da Türkiyədə səfərdədirlər.

Səfər çərçivəsində nazir müavini E.Mirzəyev Marmarisdə Böhranların İdarəedilməsi Mərkəzində Türkiyə Respublikasının daxili işlər nazirinin müavini Mehmet Ərsoy ilə görüşüb. Görüşdə E.Mirzəyev FHN-in yanğın-xilasetmə qüvvələrinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş Türkiyəyə gəldiyini deyib. Nazir müavini səfərinin məqsədinin Türkiyəyə yardıma gələn Azərbaycanın yanğın-xilasetmə qüvvələrinin fəaliyyətinin koordinasiyasının təşkili olduğunu vurğulayıb.

E.Mirzəyev Azərbaycan FHN-in qüvvələrinin yanğınsöndürmə istiqamətindəki fəaliyyətindən danışıb. Nazir müavini FHN-in müvafiq yanğın-xilasetmə qüvvələrinin növbəti qrupunun da artıq qardaş Türkiyədə olduğunu xatırladaraq, qrupun tərkibi və imkanları barədə ətraflı məlumat verib.

Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayan Türkiyənin daxili işlər nazirinin müavini Mehmet Ərsoy göstərilən dəstəyə və köməyə görə Prezident İlham Əliyevə və qardaş Azərbaycan xalqına təşəkkür edib.

## Marmarisdə Azərbaycan yanğınsöndürənlərinin səhər toplantısı keçirilib

Azərbaycan Prezidentinin tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələrinin əməkdaşları Türkiyədə tüğyan edən meşə yanğınlarının söndürülməsi üçün əzmlə çalışırlar.



AZƏRTAC-ın xüsusi müxbiri hadisə yerindən xəbər verir ki, azərbaycanlı yanğınsöndürənlər hər gün Türkiyənin Böhranların İdarəedilməsi Mərkəzinin Marmaris məntəqəsində toplanaraq təlimatlandırıldıqdan sonra təyinat mərkəzinə yollanırlar.

Avqustun 3-də Azərbaycanın fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyev Azərbaycan yanğınsöndürənlərinin səhər toplanışında iştirak edib, onlara müvafiq tapşırıqlar verib.

Sonra general-leytenant Etibar Mirzəyev Türkiyənin Böhranların İdarəedilməsi Mərkəzinin Marmaris məntəqəsində olub. Burada rəqəmsal sistem vasitəsilə bölgədəki vəziyyət barədə məlumat verilib, görülən tədbirlər, yanğınsöndürənlərimizin fəaliyyət yeri müzakirə edilib.

Marmaris bölgəsi hazırda Türkiyədə yanğınların tüğyan etdiyi qaynar nöqtələrdən biridir. Bölgədə yanğınların söndürülməsi üçün helikopterlər intensiv fəaliyyət göstərir.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə çatmışdı. FHN-in ikinci qrupu da artıq Türkiyədə təyinat məntəqəsindədir. Bu qrupa 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxildir.

## Yanğınsöndürmə əməliyyatları peşəkarlıqla davam etdirilir

Türkiyədə meşə yanğınlarının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, qardaş ölkəyə göndərilən Fövqəladə Hallar Nazirliyinin (FHN) yanğınsöndürmə qüvvələri yanğınların söndürülməsi əməliyyatlarını peşəkarlıqla davam etdirirlər.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, artıq bir neçə gündür meşə yanğınlarının geniş vüsət aldığı bölgələrdən olan Marmaris ərazisində fəaliyyət göstərən yanğınsöndürənlərimizin səyi ilə bir çox istiqamətlərdə meşə yanğınlarının genişlənməsinin qarşısı alınıb. Hazırda FHN-in yanğınsöndürmə qüvvələri yanğın ocaqlarının söndürülməsi üçün əməliyyat şəraitinə uyğun olaraq lazımi tədbirləri davam etdirirlər.

Qeyd edək ki, Azərbaycan fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin rəhbərliyi ilə nazirliyin Marmaris bölgəsində olan yanğın-xilasetmə qüvvələrinin koordinasiyalı idarəetməsi təşkil olunub. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Azərbaycan Fövqəladə Hallar Nazirliyi tərəfindən Türkiyəyə yola salınmış ikinci yanğın-xilasetmə qrupu isə avqustun 4-dən yanğınların söndürülməsi əməliyyatlarına başlayacaq.

## Türkiyədə könüllülər kütləvi şəkildə “Yaşıl vətən”in keşiyinə qalxıblar

Türkiyə xalqı ölkədə tüğyan edən meşə yanğınlarının söndürülməsi üçün səfərbər olub. Çoxminli könüllülər ordusu böhran bölgələrində təmənnasız xidmət üçün aidiyyəti qaydada müraciət etməkdə və prosesə cəlb olunmaqdadır. Bir sözlə, Türkiyədə könüllülər kütləvi şəkildə “Yaşıl vətən”in keşiyinə qalxıblar.



AZƏRTAC-ın xüsusi müxbiri hadisə yerində Muğla vilayətinin Marmaris bölgəsində böyük bir könüllü dəstəsinin üzvləri ilə həmsöhbət olub.

Buradakı böhran məntəqəsində hər kəs azərbaycanlı xilasedici və yanğınsöndürənlərin fədakarlığından ürək dolusu danışır. Eləcə də könüllülər Azərbaycanın yanğınsöndürmə qruplarının fəaliyyətini əsl qardaşlıq nümunəsi kimi dəyərləndirirlər. Könüllülərin rəhbəri Qədir Qurtuluş bildirib ki, Marmarisdə yanğınla mübarizə dəstəsində müxtəlif ixtisaslı, o cümlədən həkim, mühəndis və s. gənclər toplaşıblar.

Sumru Benligüc “Nə üçün könüllü oldunuz?” sualına qısa, lakin olduqca mənalı cavab verib: “Nə üçün olmayım?” Bu suala başqa bir qadın könüllünün “Vətənim üçün” cavabı, əslində, qardaş Türkiyə xalqının “Yaşıl vətən”i yanğınlardan qorumaqda nə qədər qətiyyətli olmasının bariz göstəricisidir. Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, FHN-in yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə çatıb. FHN-in 1 helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, 1 tibbi yardım avtomobili, 320 yanğınsöndürən və xilasedicidən ibarət ikinci qrupu da amansız meşə yanğınlarının söndürülməsinə cəlb olunub.

## “Can Azərbaycanın türk bayrağı sevgisi”













Azərbaycan yanğınsöndürənlərinin şücaəti qardaş ölkənin bir neçə yüzminlik tirajlı qəzetlərinin, baxış sayı milyona çatan internet portallarının, sosial şəbəkədəki səhifələrin əsas manşet mövzusuna çevrilib. “Azərbaycan qardaşlığını növbəti dəfə sübut etdi” başlığı, demək olar ki, əksər KİV-in manşet xəbəri olub. Muğlanın Marmaris bölgəsindəki meşə yanğınları səbəbi ilə Azərbaycandan gedən xilasetmə qruplarının türk bayrağına olan hörmət və həssaslığını türk mediası gündəmə çevirib.

“Sabah”, “Milliyet”, “Akşam” və digər qəzetlər “Can Azərbaycanın türk bayrağı sevgisi” başlıqlı xəbərlərində yazırlar ki, Hisarönü bölgəsində çalışan azərbaycanlı yanğınsöndürənlərin evlərin divarlarından asılan Türkiyə bayraqlarına həssaslığı diqqət çəkib. Belə ki, yanğınsöndürənlər Türkiyə bayraqlarının yanmaması üçün onları bir-bir toplayaraq qoruma altına alıblar: “Can Azərbaycanın yanğınsöndürmə briqadasının komandiri Kamil Dünyamalıyev Türkiyəni ürəkdən sevdiyini və baş verən meşə yanğınlarının onu çox kədərləndirdiyini bildirib: “Türklər bizim qardaşımızdır. Azərbaycan və Türkiyə hər zaman qardaş olacaq. Son günə qədər Türkiyənin yanındayıq. Biz meşə yanğınını söndürmək üçün Marmarisə gəldik. Ev yanırdı, evin içərisinə girdim və gördüm ki, heç kim yoxdur. Türkiyə bayrağını gördüm və götürdüm. Bayraq bizim üçün çox vacibdir”.







Azərbaycan və Türkiyənin dost, qardaş olduqları bu çətin günlərdə növbəti dəfə öz təsdiqini tapdı. Meşə yanğınlarında Türkiyənin köməyinə tələsən ilk ölkə məhz Azərbaycan oldu. Bu, türk xalqı və dövləti tərəfindən də yüksək səviyyədə qiymətləndirilir.

Hazırda Azərbaycan yanğınsöndürənləri Türkiyəni bürüyən meşə yanğınları ilə bağlı mübarizədə türkiyəli həmkarları qədər mətinlik, əzmkarlıq göstərirlər. Bu, türk mediasının, ictimaiyyətinin xüsusi diqqət mərkəzindədir.

“Sondakika.com.tr” saytının “Qardaş Türkiyəmizin yanındayıq” başlıqlı xəbərində yanğınsöndürənlərin fikirlərinə geniş yer verilərək vurğulanır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir: “Azərbaycanlı yanğınsöndürənlərdən biri ilə söhbətimiz zamanı dedi ki, biz Türkiyəmizi çox sevirik.”

Xəbərdə daha sonra qeyd edilir ki, 20 il əvvəlki Azərbaycan ilə bugünkü Azərbaycanı müqayisə etmək mümkün deyil: “Bu gün tamamilə başqa bir Azərbaycan göz önündədir. Daim inkişaf edən, dəyişən bir Azərbaycan var”.

Sonda bildirilir ki, bu yanğın növbəti dəfə sübut etdi ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmaz və əbədidir. Azərbaycan Prezidenti İlham Əliyev isə Türkiyənin ən yaxın və səmimi dostudur.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***







## “Azərbaycan yanındadır, Türkiyəm!”

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, şair-publisist, polkovnik Abdulla Qurbaninin Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları ilə əlaqədar qardaş türk xalqına ünvanlanan “Azərbaycan yanındadır, Türkiyəm” şeiri əsasında klip hazırlayıb.

AZƏRTAC xəbər verir ki, klipdə Azərbaycan Prezidenti İlham Əliyevin yanğınlarla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda əks olunan fikirlərə xüsusi yer verilib. Klipdə həmçinin qardaş türk xalqının yanğınların qarşısının alınmasında göstərdiyi fədakarlıq tərənnüm olunur. “Bir millət, iki dövlət” olan qardaş xalqlarımızın bu çətin günlərdə çiyin-çiyinə verərək yanğınların söndürülməsində göstərdiyi əzmkarlıq xüsusi vurğulanır. Eləcə də tarixboyu bir sıra çətinliklərin öhdəsindən uğurla gələn Türkiyə dövlətinin və türk xalqının bu ağır sınaqdan da üzüağ çıxacağına qəti əminlik ifadə edilib.



XII Qəbələ Musiqi Festivalı

# Festivalda Bakı Musiqi Akademiyası müəllimlərinin konserti maraqla qarşılanıb






XII Qəbələ Musiqi Festivalı çərçivəsində avqustun 3-də Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının müəllimlərinin iştirakı ilə növbəti konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, konsertdə Xalq artistləri Murad Adıgözəlzadə (piano), Ülviyyə Hacıbəyova (piano), Elnarə Dadaşova (piano), Gülnaz İsmayılova (vokal), Əvəz Abdulla (vokal), Əməkdar artist Fəridə Məmmədova (vokal), Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyev (piano), beynəlxalq müsabiqələr laureatı Nərmin Nəcəfli (piano) Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış ediblər.

Konsertdə Qara Qarayevin "Yeddi gözəl" baletindən vals, C.Puççininin "Edqar" operasından Frankonun ariyası, Soltan Hacıbəyovun "Adajio", Əfrasiyab Bədəlbəylinin "Vals", Ceyhun Allahverdiyevin "Nədəndir?", "Dilbər", İsmayıl Hacıbəyovun "Paqanini mövzusunda variasiyalar", Fərhad Bədəlbəylinin "Şuşa xatirələri", "Salam, dost", S.Kardillonun "Katari", Elnarə Dadaşovanın "Laylay", "Sənə düşüb meylim" və digər əsərlər səsləndirilib.

# Azərbaycanın COVID-19-la mübarizəsini beynəlxalq təşkilatlar da qiymətləndirir

Hələ də bəşəriyyəti təhdid edən COVID-19-un cilovlanması üçün yollar axtarılmaqda, bu gözəgörünməz bəla isə özünün yeni formaları ilə sürətlə yayılmaqdadır.

Koronaviruslar adi soyuqdəymə əlamətlərindən Yaxın Şərq Respirator Sindromu ( MERS - CoV) və Şiddətli Kəskin Respirator Sindrom (SARS - CoV) kimi daha ciddi patologiyalara qədər çeşidli xəstəliklərə səbəb olan böyük bir virus fəsiləsindəndir. Onun qarşısının alınması istiqamətində müasir tibb də sanki acizdir, mütəxəssislər ondan xilasın yeganə yolunu hələ ki vaksinasiyada görürlər.

Tibbi mütəxəssislər düşünürlər ki, koronaviruslar zoonoz infeksiya kimi heyvanlardan yoluxaraq insanlarda xəstəlik törədə bilir. Ətraflı araşdırmalar nəticəsində SARS-CoV-un müşk pişiklərindən, MERS-CoV-un isə tək hürgüclü dəvələrdən insanlara yoluxduğu məlum olub. Hazırda insanlara yoluxmayan, ancaq heyvanlarda rast gəlinən bir çox koronavirus tipi də mövcuddur.

2019-cu ilin son günündə Ümumdünya Səhiyyə Təşkilatı Çinin Hubei əyalətinin Vuhan şəhərində etimologiyası məlum olmayan pnevmoniya ilə xəstələnmə halları haqqında məlumat vermişdi. 2020-ci il yanvarın 7-də isə bu fakt daha əvvəllər insanlarda rast gəlinməyən yeni koronavirus (Novel Coronavirus - COVID-19) kimi təsdiqləndi.

Bu gün artıq dünyada 198 milyon 557 min 159 nəfərdə koronavirus aşkarlanması barədə məlumatlar yayılmaqdadır. Bu yeni növ virusdan 4 milyon 233 min 71 nəfər ölüb, 179 milyon 295 min 578 xəstə isə sağalıb. Virusa yoluxma sayına görə, ilk beşlikdə olan dövlətlər ABŞ, Hindistan, Braziliya, Rusiya və Fransadır.

Azərbaycanla dost-qardaş olan Türkiyədə 5 milyon 727 min 45, İranda 3 milyon 871 min 8, Gürcüstanda 419 milyon 534 min, Ermənistanda isə 230 min110 nəfərdə koronavirus aşkar edilib.

Sərhəd qonşularımız arasında koronavirusdan ən çox ölüm halları ardıcıl olaraq Rusiya, İran və Türkiyədə qeydə alınıb. Ölkəmizdə koronavirusa yoluxan 343 min 849 nəfərin 5023-ü ölüb, 332 min 926 xəstə isə sağalıb.

Rusiyada cari ilin iyul ayında koronavirusdan ölənlərin sayı bütün pandemiya ərzində maksimuma çatıb. Qonşu Rusiyada yalnız iyul ayında koronavirusdan 23 min 349 nəfər dünyasını dəyişib. Halbuki bu rəqəm iyun ayında 13 min 713 idi.

Buna qədər ölüm hallarında rekord isə dekabr ayında müşahidə olunmuşdu - 17124 nəfər.

Koronavirusa yoluxanlarda digər yan fəsadlar da müşahidə edilir. Norveçin Oslo Universitetinin alimləri Arne Soorasın rəhbərliyi ilə koronavirusun yaddaşa təsiri barədə araşdırma aparıblar. Elmi araşdırmaların nəticələrinə əsasən, COVID-19-un yaddaşla bağlı problemlərin yaranması ehtimalını beş dəfə artırması və mövcudların isə kəskinləşdirməsi sübut olunub.

Alimlər yaddaş pozulmasının koronavirusu yüngül keçirən şəxslərdə də müşahidə olunduğunu, analoji halların sağaldıqdan 8 ay sonra belə yarana biləcəyini istisna etmirlər.

Azərbaycan COVID-19-un peyda olan vaxtdan onun yayılmasının qarşısını almaq üçün bir sıra mühüm qabaqlayıcı tədbirlər görməsi ilə ÜST-ün, eləcə də digər beynəlxalq təşkilatların diqqətini özünə cəlb etməyi bacaran ölkə kimi tanınır. Azərbaycan hökumətinin pandemiya dövründə riskləri düzgün təhlil edərək 2020-ci ildə həyata keçirdiyi qabaqlayıcı tədbirlər və bu günədək COVID-19-la mübarizə sahəsində görülən işlərin ölkənin daxili imkanları hesabına maliyyələşdirilməsi də yüksək qiymətləndirilir. Asiya İnkişaf Bankının Direktorlar Şurasında Azərbaycan üzrə İcraçı direktor Antoni Makdonald qeyd edib ki, məhz buna görə də koronavirus pandemiyasının tibbi, sosial, iqtisadi fəsadlarını yumşaltmağa dair Azərbaycan hökumətinin əhatəli planını həyata keçirməsinə kömək məqsədilə artıq 2021-ci ildə 250 milyon ABŞ dolları məbləğində kreditin ayrılmasına dair qərar bankın Direktorlar Şurası tərəfindən yekdilliklə dəstəklənib.

"Koronavirusun daha təhlükəli variantlarının qarşısını almaq üçün peyvəndlənmə işi sürətləndirilməli, habelə pandemiya tam başa çatanadək maska taxmaq və digər təhlükəsizlik qaydalarına əməl edilməlidir". Bu barədə Avstriya, İsveçrə, İspaniyadan olan tədqiqatçılar qrupunun araşdırmasında qeyd olunub. Bildirilir ki, SARS-CoV-2 virusunun 3 il ərzində inkişaf etməsini əks etdirən model tərtib olunub. Tədqiqatın nəticəsinə görə, peyvəndlənmənin sürətli təbliği dayanıqlı ştamların ortaya çıxma ehtimalını azaldır.

Bununla yanaşı, o da qeyd olunur ki, peyvənd olunduqda belə maska taxmaq, sosial məsafə saxlamaq kimi qaydalara qarşı səhlənkarlıq etmək olmaz, çünki bu zaman digər ştamların ortaya çıxması ehtimalı xeyli artır. Buna görə də qaydalara pandemiya tam başa çatanadək ciddi əməl olunmalıdır.

Hətta Ümumdünya Səhiyyə Təşkilatı Yaxın Şərqdə və Şimali Afrikada koronavirusun dördüncü dalğasını qeydə alıb. "Yeni yoluxma hallarının və xəstəxanaya yerləşdirilən xəstələrin əksəriyyəti peyvənd olunmamış insanlardandır. Bu gün həmin bölgədə COVID-19-un dördüncü dalğası qeydə alınır", - deyə ÜST-ün Şərqi Aralıq dənizi Ofisinin rəhbəri Əhməd əl-Mandhari bildirib. Onun sözlərinə görə, bu bölgədə koronavirusun "Delta" ştammına daha çox yoluxma qeydə alınıb. Bu ştammla yoluxma halı Mərakeşdən Pakistana qədər Yaxın Şərq və Şimali Afrika bölgəsindəki 15 ölkədə müəyyən edilib.

Azərbaycana gəlincə isə, bəzi qaydalarda yumşaldılmalar aparaıldıqdan sonra yoluxma və ölüm sayındakı artım bir daha vəziyyəti tam nəzarət altına salınmasını tələb etməsə də, qaydalara əməl olunması unudulmamalıdır. Daha bir yenilik də ondan ibarətdir ki, avqustun 9-dan etibarən ölkədə istifadəsinə icazə verilən vaksinlərə qarşı əks göstərişləri olan şəxslərə "Əks göstəriş sertifikatı"nın verilməsinə başlanılır.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin yaydığı birgə məlumatda bildirilir ki, "Əks göstəriş sertifikatı" almaq üçün ərazi üzrə poliklinikalara müraciət edilməlidir. Poliklinika həmin şəxslərin məlumatlarını Səhiyyə Nazirliyi tərəfindən yaradılmış xüsusi komissiyaya təqdim edəcək. Komissiyanın rəyi əsasında vətəndaşa "Əks göstəriş sertifikatı" veriləcək.

Əks göstərişləri olmayan vətəndaşların nəzərinə çatdırılır ki, dünyada və ölkəmizdə aparılan tədqiqatlardan əldə edilmiş nəticələrin təhlili bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli növlərindən qorunmağın ən effektiv yolu vaksinasiyadır.

Vaksinasiya ilə yanaşı, fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi qaydalara riayət olunmalıdır. Bütün bunlardan sonra qeyd etməyə dəyər ki, paytaxt Bakıda fəaliyyət göstərən ictimai nəqliyyatda vəziyyət heç də ürəkaçan deyil. Belə ki, bəzi marşrut avtobuslarında sürücülərin özləri belə qoyulmuş qaydalara əməl etmirlər. Ona görə də sürücülər sərnişinlərdən məsafə saxlamağı və tibbi maskalardan istifadəni tələb edə bilmirlər. Bu isə onsuz da günün müəyyən saatlarında sıxlıq olan marşrut avtobuslarında yoluxmanı artıran səbəblərdəndir. Acınacaqlısı isə nəqliyyatda ictimai nəzarətin, ümumiyyətlə, olmamasıdır. İnsanlar polisi görcək çənəsinə taxdığı maskanı bir az yuxarı çəkməklə, sanki borcunu yerinə yetirmiş olur. Bunu xəstəlikdən deyil, cərimələrdən qorxduqları üçün edirlər.

Həkim İmran Mirizadə də yoluxma sayının artmasının səbəbini karantin qaydalarının yumşaldılmasında görür: "Hazırda bir qrup insan vaksin olunub. İkinci qrup insanlar isə infeksiyanı keçirib və onlarda immunitet yaranıb. Bu ili ötən il ilə müqayisə etsək, ötən il karantin qaydaları daha sərt idi. Biz hazırda ictimai-iaşə obyektləri və nəqliyyatdan rahat istifadə edirik. Bir sıra şadlıq evləri, "Mall"lar da var ki, bunlar da fəaliyyətini davam etdirir. Bu da öz növbəsində yoluxma sayının artmasına münbit şərait yaradır. Odur ki, qaydalara əməl etmək lazımdır".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***







◆ Qarabağ söhbətləri

# Keçmişdən qopan gələcək

## On yeddi yaşında Ağdamdan ayrılan Əli Əmirli əlli altı ildən sonra doğma yurda xatirələrin ağuşunda qayıtdı

*Əvvəli 1-ci səh.*

Hər gələn sabah da elə indiyə, bu günə çevrilir. Peyğəmbərə aid edilən hədislərin birində havayı yerə deyilməyib ki, sabahın dərdini bu gün çəkmə. Personajlarımdan birinin dili ilə desəm, keçmiş yuxu, gələcək (əgər gələcəksə) naməlum, nağd olan bu gündür, indidir, onun qədrini bilmək gərək. Bəlkə elə buna görə idi ki, cavanlıqda ağdamlı olsam da, Qarabağı o qədər də tez-tez xatırlamırdım. Xatırlayanda isə, Qarabağ mənim üçün iki məkana bölünürdü: doğulduğum Novruzlu kəndi, böyüdüyüm 1 nömrəli məktəbini bitirdiyim Ağdam şəhəri...

Kənddən yeddi, Ağdamdan on yeddi yaşımda çıxıb dünyanın ən gözəl, ən doğma şəhərinə - Bakıya gəlmişəm. O Bakıya ki, yaxşı nəyim varsa, onunla bağlıdır. Bakısız özümü xoşbəxt hiss edə bilmirəm. Bununla belə, zaman keçir, yaş artır və xatirələr yaddaşımın hansı küncündəsə dirilir, ilkin mənbədən daha canlı, daha təsirli olur, aydın şəkildə keçmişimi görürəm. Görürəm ki, ömrümün ilk on yeddi ili Novruzlu ilə, Ağdamla bağlıdır. Həqiqətən, keçmiş yuxu olsa da, o adamın içində həmişə canlıdır, diridir. Xatirələrin uyuduğu o keçmiş insanın bütün gələcək həyatını müəyyənləşdirir, yönəldir, istiqamət verir. Mən bunu yetmiş yaşı tamam eləyəndən sonra daha dərindən, daha aydın duyuram, görürəm.

Hərdən bu yaşımda düşünürəm, bütün həyatım, yaradıcılığım, xoşbəxtliyim, varlığım Bakı ilə bağlı olduğu halda nədir məni Qarabağa, konkret desəm, Ağdama, kiçik vətənim Novruzluya bağlayan? Az qala otuz ildən sonra azadlıq qazanmış Ağdama getmək istəyimin bu qədər güclü olmasının səbəbi nədir? Niyə mən murdar düşmənin xaraba qoyduğu şəhəri görmək istəyirəm, bu yanğı nə ilə bağlıdır? On il yaşadığım, dünyanı az-çox qanmağa başladığım Ağdamın kol-kos başmış Dəyirman həyətinin xarabalığında məni saran həyəcan, boğazımı göynədən qəhərin səbəbi nədir? Suallar çoxdur, cavablar konkret deyil.

Bəlkə, xarabalıq içərisində dayanıb xatirələrdə də olsa keçmişi bərpa etmək, yaşanmışları yenidən yaşamaq istəyidir bu? Bəlkə, məhz bu xatirələr hesabına ömrün çox az qalmış müddətini uzatmaq istəyi var burda? Bəlkə, ona görə qoca adam daima keçmişi yada salır, yorulmadn xatirələr söyləyir.

Personajlarımdan birinin parlaq keçmişini yada salmaq, bəzək-düzək vuraraq xatirələr danışmaq zəifliyi var, özü də bunu bilir, ona görə də rəfiqəsinə deyir ki, görsən bir şeyi iki dəfə danışıram, ətəyimi çək və de ki, bunu danışmısan. İndi mən də hiss edirəm ki, bu söhbətləri artıq "Ağdamda nəyim qaldı?" avtobioqrafik romanımda demişəm, indi onları təkrarlayıram.

### Müəllimdən şikayət yazmışdıq

- Ağdamla bağlı xatirələrimin məkanı şəhərin məşhur məhəllələrindən biri ilə - Dəyirman həyəti ilə bağlıdır. Oxuduğum 1 nömrəli məktəbə aid xatirələrim çoxdur. Dəyirman həyəti ilə bağlı ən parlaq hadisələri "Ağdamda nəyim qaldı?" romanımda qələmə almışam. Məktəb xatirələrim isə məni heç vaxt dilləndirməyib. Baxmayaraq ki, ilk səhnə əsərimin mövzusu məhz məktəbimizlə, 11-ci sinifdə oxuduğumuz zamanla bağlıdır.

Məktəbi bitirməyə ikicə ay qalmışdı. Ədəbiyyatdan bizə dərs deyən müəllimdən narazı idik, indiki ağlımla baxanda müəllimdə neqativ keyfiyyətlər elə də dərin deyildi, insafən müəllim dərsə can yandırır, ədəbiyyatı bizə sevdirməyə çalışırdı, amma sevmirdik onu. Müəllimin dedikləri ilə əməlləri üst-üstə düşmürdü, əksinə, ədəbiyyatın təbliğ etdiyi mənəvi dəyərləri gözdən salırdı. İlk gənclik dövründə hamı həqiqətpərəst olur. Nəhayət, müəllimi sinfimizdən uzaqlaşdırmaq üçün ərizə yazmaq qərarına gəldik. Yazdıq da!

Təsəvvür edin, 1965-ci il, sovet hökümətinin gur-gur guruldayan vaxtı, partiya, komsomol, pioner təşkilatları və şagirdlərin kollektiv etiraz ərizəsi! Əlbəttə, biz istəyimizə nail ola bilmədik, müəllim valideynlərimizin köməyi ilə faktik olaraq qalib gəldi, amma mənəvi qələbə bizim idi, müəllimin "markası" xeyli aşağı düşdü. Baxt bu əhvalat mənim "Ərizə" adlı ilk səhnə əsərimin yazılmasına səbəb oldu.

### Qızın atası deyib ki, bu oğlan yazıçı olacaq

- Xatirələr çox idi, ilk sevgilər, ilk davalar, uğurlar və uğursuzluqlar, ilk qələm təcrübəsi. Onuncu sinifdə yazdığım "indiyski" hekayələrimdən birini gizlicə sevdiyim qıza verdim, diqqətini üstümə yönəltmək üçün. Hekayə qızın necə xoşuna gəlibsə, aparıb evdə bütün ailəyə oxuyub. İlk dinləyicilərim yazıya heyran qalıblar, qızın bazarda alverlə məşğul olan atası deyib ki, bunu yazan oğlan böyük yazıçı olacaq. Alverçi də olsa, kişinin proqnozu "böyük" sözünü çıxmaq şərti ilə doğru olub. Məqamı gələndə deyirəm, mənim ilk tənqidçim bazarda alverçi olub.



Uşaqlıq illərim xeyli dramatik, mürəkkəb keçib. O gündən ki, ata dediyim dayım məni övladlığa götürüb Ağdama gətirdi. Onda mənim yeddi yaşım vardı, hər şeyi də çox gözəl başa düşürdüm. Bir neçə qızdan sonra doğulan birinci oğlanın ailədəki yeri məlumdur. Yeddi il çox ərköyün, sevilən, canına and içilən uşaq olmuşam, Ağdama gələnə qədər. Sonrası isə avtobioqrafik romanımda bütün təfərrüatları ilə yazılıb.

Ağdamlı olasan, həyatında, xatirələrində musiqinin yeri olmaya? Mümkünsüzdü!

Mən də musiqini sevirdim, özü də ciddi şəkildə, amma bu məsələdə mən muğam xridarı olan ağdamlılardan yüz səksən dərəcə seçilirdim. Deməyə də qorxuram, mən muğamatı sevmirdim. Məni Azərbaycan bəstəkarlarının romansları, operalardan ariyalar, estrada mahnıları cəlb edirdi. Dinlədiyim əsərlərin hamısını əzbər bilir, hətta tam otruşmamış dramatik tenora yaxın səsimlə oxumağa cəsarət edirdim. Hər bazar günü saat ikidə muğamat konsertini ağdamlılar həsrətlə gözləyirdilər, mənsə dərd çəkirdim, bu muğam nə vaxt bitəcək? Mən Bülbülə, Rəşid Behbudova, Şövkət Ələkbərovaya qulaq asırdım. Bütöv Ağdamda bəlkə məndən başqa heç kəs Zəhra Rəhimovanı, Firəngiz Əhmədovanı, Sona Aslanovanı, Ədilə Hüseynzadəni, Rauf Atakişiyevi, Ağababa Bünyadzadəni tanımırdı. Bu, o vaxtlar idi ki, atamın xalası oğlu, nağaraçalan Yelmar dayı deyirdi ki, "sən öl, camaat Bülbülün əlindən radiosunu satır". Şövkət Ələkbərova fortepianonun müşayiəti ilə oxuyanda arvadlar qışqırırdı ki, "o radyonu keçir, Şokət yenə urusca oxuyur".

Deyim ki, mən özüm də zövqümün bu istiqamətinə təəccüb edirdim. Çünki onlara xüsusi ləzzətlə qulaq asırdım. Zəhra Rəhimovanın ifasında Üzeyir bəyin "Firuzə" operasından Firuzənin ariyasını dinləməkdən doymurdum, onu da bilirdim ki, əslində, bu operadan bircə ariya qalıb, bəlkə də Üzeyir bəy operanı elə bu ariyanın xatirinə yazmaq istəyirmiş, o da alınmayıb. Bir də görürdün ariyanın kulminasiya hissəsində nənəm müğənnidən bərk qışqırdı: "Ay üstünə od tökülsün, kəs onun səsini, başım getdi!"

Mən, yəqin ki, müğənni olmaq istəyirdim. Əlbəttə, içimdə aktyor olmaq istəyi də güclü idi. Bir dəfə aktyor kimi səhnəyə çıxdım da. Pioner həyatından duzsuz bir pyes idi. Yaxşı səsimə və aydın diksiyama görə baş rolu mənə vermişdilər. Mədəniyyət evinin səhnəsində məktəblilərin olimpiadasına baxış keçirilirdi. Məktəbimiz baxışa bizim tamaşa ilə qatılmışdı. Tamaşa başladı, mən sözlərimi unutmuşdum, səhnədə dəhşətli dərəcədə sıxılırdım. Tamaşa bitdi, ya bitmədi unutmuşam, xəcalət hissi isə hələ də yadımdadı. Elə ordaca səhnəyə, aktyorluğa həmişəlik əlvida deməyə özümdə güc tapdım.

Ancaq Bakıya gələndən sonra muğamları anlamağa, onlardan zövq almağa başladım, bu, tədrici proses idi. İndi də muğam xridarı deyiləm, amma ustad nəfəsini dərhal hiss edirəm. Ümumiyyətlə, muğamı və aşıq havalarını yaşlı müğənnilərin ifasında dinləməyi xoşlayıram. Uşaqların muğam oxumasını isə qəbul etmirəm. Əlbəttə, istisnalar da olur.

### Novruzluda ondan gözəl qadın yoxuydu

Doğulduğum Novruzlu kəndində cəmi yeddi il yaşasam da, kəndin toylarını şirin, əsrarəngiz nağıl kimi xatırlayıram, ata-anam qardaş-bacılarım arasından ancaq məni aparırdılar toylara. "Ağdamda nəyim qaldı?" romanında Novruzlu toylarına xüsusi fəsil ayırmışam.

Yaşa dolduqca, elə birbaşa deyək, qocaldıqca köhnə xatirələrin təsir gücü azalır, bir vaxtlar səni üzən nostalji zəifləyir, heydən düşür, amma yenə də! Bu xatirələr içərisində Novruzlu toylarının dəyişməz "paççah"ı gər səsli arıq, hikkəli Tağı Yarovu, bir də çox gözəl rəqs eləyən, ağappaq üzü işıq saçan, kənd qadınlarından kəskin seçilən, şəhərlilər kimi yaraşıqlı geyinən Aysabah müəllimi elə bil indi də görürəm. O, adi kənd qadınları kimi başını aşağı salıb utana-utana oynamırdı. Onun rəqsi qadının bütün gözəlliyini aşkar edir, onu olduğundan da yaraşıqlı, gözəl göstərirdi. İndinin özündə də Aysabah müəllimin geyim-kecimi, başındakı ağ, uzun saçaqlı ipək örpəyi, örpəyi rəngində dikdaban lak çəkmələri gözümün qabağındadı. Çox-çox uzun illərdən sonra Bakıda xalam oğlunun hüzr yerində az qala əyilib ikiqat olmuş bir qarını mənə göstərib dedilər: "Aysabah müəllimdir, sənin yadına gəlməz. Bir vaxtlar Novruzluda ondan gözəl qadın yoxuydu".

Novruzlu toylarının birində "Qarabağın maralı" mahnısının müəllifi İsgəndər Novruzlunu görmüşdüm. Bir suyu Səməd Vurğunun ağsaçlı vaxtlarına çəkirdi.

Xatirələr çoxdur, çətini o ümmana baş vurmaqdır, üzüb sahilə çıxmaq çətin, ona görə qocaların çoxu haqq dünyasına qovuşana qədər elə xatirələr dənizində çapalayır.

Daha bir məqam doğulduğum Novruzlu kəndi ilə bağlıdır. 1985-ci ilin yanvarı idi. Bakıda iş yerimdə oturub "Axirətdən qabaq gəzinti" adlı romanımın hansısa fəslini yazırdım. O illərdə bir elmi-tədqiqat institutunda nəşriyyat-istehsalat şöbəsinə rəhbərlik edirdim. Saat beşdə hamı işini bitirib evə gedəndə, mənim iş otağımda yaradıcılıq saatım başlayırdı. Demək olar, hər gün saat səkkizə kimi yazırdım. Bu, bir adətə çevrilmişdi. Uzun illər bu rejimdə işləmişəm. Bütün əsərlərim eyni rejimlə yazılırdı. Həmin gün də işimi bitirib çıxmaq istəyirdim ki, telefon zəng vurdu və tanımadığım bir adam anamın ölüm xəbərini mənə dedi. Bu çox gözlənilməz acı xəbər, o vaxta qədər həyatımda almadığım ən böyük zərbə idi. Gecə qatara minib Ağdama yola düşdüm. Ertəsi gün səhər tezdən artıq Novruzluda idim. Babam Məşədi Əlinin qardaşı Kəlbəabbasla inqilabdan əvvəl şərikli tikdirdiyi nəhəng ikimərtəbəli binanın həyəti kənd camaatı ilə dolu idi. Mən Ağdama gedənəcən bu evdə yaşamışdım, dayım məni övladlığa götürənəcən. Kəndin girəcəyində olsa da, elə bizim bu evə görə Boccalı adlanan məhəlləmiz bir vaxtlar Novruzlunun mərkəzinə çevrilmişdi. Səbəb də kolxoz idarəsinin, kənd sovetinin, sonralar kənd xəstəxanasının da inqilabçı hökumət tərəfindən qismən müsadirə edilmiş bu imarətə, yəni bizim evə yerləşdirilməsiydi. Mülkümüzün hökumət tərəfindən işğalı altmışıncı illərə qədər davam etmişdi. Sonralar elə bir vaxt gəlib çatmışdı ki, o möhtəşəm imarətdə mənim yönlü bir gün görməmiş yazıq anamdan və bir-iki qohumdan başqa heç kəs qalmamışdı, ölən ölmüş, qalanlar da dərbədər olmuşdular.

Cənazəsində əbədi yuxuya getmiş anam demiş, qu desən, məhlədə qulaq tutulardı. İndi məni bu kəndə bağlayan heç nə qalmadı. Onda belə düşünürdüm. Sonralar, hər bayramlarda həyat yoldaşım Solmaz xanım valideynlərinin qəbrinə baş çəkəndə işğalda olan kəndim - Novruzlu yada düşürdü. Qarqarın üstündəki Novruzlu qəbiristanlığını xəyalən gəzirdim, doğma atamın, anamın, ata dediyim dayımın, nənəmin, adlarını çəkmədiyim neçə əziz adamımın qəbirlərini ziyarət etmək istəyirdim. Amma mümkün deyildi, kənd də, qəbiristanlıq da, qəbirlər də işğalda idi...

### Sonuncu dəfə Ağdamda atam rəhmətə gedən gün olmuşdum

Mən Ağdamın ən yaxşı vaxtlarında, konkret desəm, 1965-ci ildə çıxıb taleyimin şəhərinə - Bakıya gəlmişdim. Ağdamla əlaqələrim qırılmamışdı. Hər yay Bakıdan vətənə dönür, beş-on gün qalıb qayıdırdım. Axırıncı dəfə isə 1986-cı ildə, atam rəhmətə gedəndə Ağdamda olmuşam. Ondan sonra nə Ağdamı, nə Novruzlunu görmüşəm.

Nəhayət, Ağdamı işğaldan azad etdik. Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, qətiyyətli komandanlığı altında qəhrəman Azərbaycan Ordusu murdar düşməni zəlil etdi. Müstəqil Azərbaycanın igidləri erməni vandallarını torpaqlarımızdan iti qovan kimi qovdular. Bizim hər birimiz bu möhtəşəm qələbəni daddıq, əyilmiş qəddimizi dikəltdik. Anladıq ki, bu həlledici məqamda qalib gəlməsək, ədalətə kar və kor olan, üzünə sivil maskası taxmış qəddar dünya uf demədən bizi əzərdi, ölkəmizi viran qoyardı. Biz bu qələbə ilə dünyaya sübut etdik ki, biz varıq, möhtəşəm xalqıq, bizim yaşamağa haqqımız var. Bu haqqı biz özümüz qazanmışıq!

Bu möhtəşəm qələbə ab-havasında 2021-ci ilin 29 mayında bir də gözümü açdım ki, Dəyirman həyətindəyəm, daha doğrusu, həmin həyətin, yeddidən on yeddiyədək yaşadığım evin xarabalığı qarşısındayam. Bütün danışdığım bu xatirələr həmin gün o həyətin kol-kos basmış xarabalığında üstümə sel kimi axanlardır. Novruzlu ilə, Ağdamla, Qarabağla bağlı xatirələr. Nə qədər ki varam, o xatirələr də olacaq, olmayanda isə kağızlarda, yazdıqlarımda, nəhayət, "Ağdamda nəyim qaldı?" romanımda qalacaq.

*Uşaqlığında tərk etdiyi abad, yaşıllığa qərq olmuş, insanları da İmarətin qala divarları kimi möhkəm özüllü, özündə tarixi yaşadan yurduna o xatirələrin ağuşunda qayıtdı. İndi nə o təmtəraqlı Ağdam vardı, nə də uşaqlığı - hər ikisi xatirələrdə və tarixdə qalmışdı. Amma indi daha abad, gözəl, inkişaf etmiş bir yurd olacaq burda, indi dağıntıları arasında durduğu yerdə, gələcək olacaq, keçmişdən qopan gələcək...*

***Söhbəti yazdı:***
***Ramilə QURBANLI,***
***"Azərbaycan"***




## XXXII Tokio Yay Olimpiya Oyunları

# İKİQAT QƏLƏBƏ!

### Güləşçimiz Rafiq Hüseynov erməni rəqibini məğlub edərək Olimpiadanın bürünc medalını qazandı

*Əvvəli 1-ci səh.*



Çünki pəhləvanlarımız iştirak etdikləri istənilən turnirin favoritləri sayılırlar.

Odur ki, Yaponiyada təşkil olunan XXXII Yay Olimpiya Oyunlarında medal gözlənilən idman növlərindən biri də güləşdir. Və gözləntilərimizdən biri nəhayət ki, doğruldu. Güləşçimiz Rafiq Hüseynov ölkəmizin aktivinə növbəti bürünc medal yazdırdı.

77 kq çəki dərəcəsində yarışan Rafiq ilk görüşündə dünya çempionatının gümüş və Avropa birinciliyinin bürünc mükafatçısı isveçli Aleks Kessidisə qalib gələrək adını1/4 finala yazdırmışdı. Lakin yarımfinala gedən yolda təmsilçimiz Akjol Mahmudova (Qırğızıstan) gözlənilmədən uduzdu. Buna baxmayaraq, rəqib finala yüksəldiyi üçün təmsilçimiz təsəlliverici görüşdə iştirak hüququ qazandı və təsəlliverici görüşdə Tunis idmançısı Lamjed Maafini məğlub edərək bürünc medal qazanmaq şansı əldə etdi. Rəqib isə "Dəmir yumruq"la başını əzdiyimiz Ermənistanın güləşçisi Karapet Çalyan idi.

Nəhayət, həyəcanlı məqam gəlib çatdı. Tribunada "Azərbaycan, Azərbaycan!" sədaları səngimək bilmirdi. Televiziya qarşısında əyləşən milyonlarla azarkeş güləşçimizdən qələbə gözləyirdi. Hər iki pəhləvan ilk hissədə fəal oldu. Lakin rəqibindən daha güclü olan Rafiq 4:1 hesabı ilə qalib gələrək Olimpiadanın bürünc medalını qazandı. Bu, ikiqat qələbə idi!

Xatırladaq ki, ikiqat Avropa çempionu olan R.Hüseynov 2011-ci ildə Almaniyada, 2020-ci ildə İtaliyada təşkil olunan qitə birinciliklərində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Güləşçimiz həmçinin 2019-cu ildə Qazaxıstanda keçirilən dünya çempionatını ikinci pillədə başa vurub. R.Hüseynov Bakının evsahibliyi etdiyi I Avropa və IV İslam Həmrəyliyi oyunlarında da gümüş medala sahib olub.

Yunan-Roma güləşçimiz "Tokio-2020"də bürünc medal qazandıqdan sonra media nümayəndələrinə açıqlamasında deyib ki, çox sevinirəm: "Bu, çoxdankı arzum idi. Bütün medallarım var idi, təkcə Olimpiadada medal qazanmamışdım. Hər dəfə iştirak etmək nəsib olmurdu. Çox şadam ki, bu dəfə Olimpiadada iştirak edə bildim və medal qazandım. Qələbə qələbədir və hər hansı millətdən olan idmançıya fərq qoymuram. Əsas odur ki, medal qazanmışam və çox sevinirəm. Mənim üçün bundan böyük qələbə yoxdur".

Qələbəsini atasına həsr etdiyini vurğulayan idmançı bildirib: "Təbii ki, bürünc medal qızılın yerini vermir. Amma əsas odur ki, komandaya medal qazandırdım. Adətən güləşçilərdən gözləntilər böyük olur. Komandamızın əsas idmançılarının çıxışları hələ qarşıdadır. İnşallah, qarşıdakı günlərdə digər güləşçilərimiz də medal qazanarlar".

Rafiqin atası, güləş müəllimi olan Radik Hüseynov da mətbuata açıqlama verib: "Rafiq bürünc medal uğrunda görüşə düşmən ölkənin idmançısı ilə çıxmışdı. İstər-istəməz narahat idik. Bu qələbəyə çox sevindik. Rafiqə halal olsun! Bütün qohumlar bizə yığışmışdı. Anası da özünü çox narahat hiss edirdi. Rəqibin erməni olması gərginliyi daha da artırmışdı. Rafiq illərdir mötəbər yarışlarda iştirak edir. Həmişə həyəcan olub. Ailə, dostlar, yaxınlar həmişə ondan qələbə gözləmişik. Bu dəfə onun ilk hissədə hesabda geri düşməsinə baxmayaraq, qələbəsinə inanırdıq. İdmanda əsas yekun nəticədir. Kimin əli yuxarı qalxırsa, qalib də odur".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



## Olimpiya Oyunlarında 294 nəfər koronavirusa yoluxub

Tokio Olimpiya Oyunları ilə əlaqəli şəxslər arasında daha 18 nəfərin koronavirusa yoluxduğu müəyyən edilib. Bu barədə Olimpiadanın təşkilat komitəsinin saytında məlumat verilir.

Xəstələrdən birinin sinxron üzgüçülük üzrə Yunanıstan komandasının üzvü olduğu qeyd edilir. Hazırda həmin idmançı karantinə alınıb.

Beləliklə, Olimpiyada ilə əlaqəli şəxslər arasında ümumi yoluxanların sayı 294 nəfərə çatıb. Həmçinin iyulun 1-dən Olimpiya Oyunlarına hazırlıq və yarışların gedişində 500 mindən çox koronavirus testi götürüldüyü qeyd edilir.

Xatırladaq ki, ümumi epidemioloji vəziyyət ağır olduğuna görə Yaponiya hökuməti Tokioda fövqəladə vəziyyət rejiminin müddətini avqustun 31-dək uzadıb. Buna görə də avqustun 8-də başa çatacaq yarışlara azarkeşlər buraxılmır.

## Ukraynanı təmsil edən azərbaycanlı güləşçi finala vəsiqə qazanıb



Ukraynanı təmsil edən azərbaycanlı güləşçi Pərviz Nəsibov Tokio Olimpiadasının finalına vəsiqə qazanıb.

Yunan-Roma güləşi yarışlarında 67 kiloqram çəki dərəcəsində mübarizə aparan soydaşımız həlledici görüş yolunda danimarkalı Fredrik Byerrexus, Misir təmsilçisi Məhəmməd İbrahim Elsəid və rusiyalı Artyom Surkova qalib gəlib. Bu gün keçiriləcək finalda Pərviz İran idmançısı Məhəmmədrza Gərayi ilə qarşılaşacaq.

Surkov üzərində qələbədən sonra müsahibə verən 22 yaşlı P.Nəsibov uğuruna görə yaxınlarına, məşqçilərinə, Azərbaycan və Ukrayna xalqlarına minnətdarlıq etmişdir. Qeyd edək ki, Pərviz Ağstafada anadan olmuş, 6 yaşında ikən ailəsi ilə Nikolayev şəhərinə köçmüşdür.




## Norveçli atlet dünya rekordunu yenilədi

Norveçli atlet Karsten Varholm "Tokio-2020" Yay Olimpiya Oyunlarında ötən ay müəyyənləşdirdiyi dünya rekordunu yeniləyib.

"Kyodo" agentliyi xəbər verir ki, idmançı 400 metr məsafəyə maneələrlə qaçış yarışında 45,94 saniyə nəticə göstərərək Olimpiya çempionu olub. ABŞ idmançısı Rey Bencamin yarışı ikinci, braziliyalı Alison Dos Santos isə üçüncü pillədə başa vurublar.

Qeyd edək ki, əvvəlki rekord da məhz norveçli atletə məxsus idi. Belə ki, K.Varholm iyulun 1-də Norveçin paytaxtı Osloda təşkil olunan Brilyant Liqa yarışlarında həmin məsafəni 46,70 saniyəyə qət etmişdi.

## Erməni idmançı dopinqə görə Olimpiadadan qovuldu

"Tokio-2020" Yay Olimpiya Oyunlarında erməni əsilli Gürcüstan atleti Benik Abramyan yarışdan kənarlaşdırılıb. Nüvə itələmədə yarışan idmançı dopinqdən istifadə etdiyinə görə cəzalandırılıb.

O, antidopinq qaydalarını pozması üzündən Olimpiadadan qovulub. Bunu Beynəlxalq Dopinq Testləşdirmə Agentliyinin (İTA) Mətbuat xidməti açıqlayıb. Bildirilib ki, Abramyanın iyulun 31-də verdiyi analizinin A probunda deqidroxlormetiltestosteron, metandienon və tamoksifen aşkarlanıb.



## Kubalı güləşçi Mixain Lopes dördqat Olimpiya çempionu oldu




Kubalı yunan-Roma güləşçisi Mixain Lopes rekorda imza atıb. Tokio Olimpiadasında 130 kiloqram çəki dərəcəsində çıxış edən güləşçi dördqat Olimpiya çempionu olub. AZƏRTAC xəbər verir ki, 39 yaşlı idmançı finalda Gürcüstan güləşçisi Yakob Kacayanı məğlub edib.

Kubalı güləşçi daha əvvəl "Pekin-2008", "London-2012" və "Rio-2016" olimpiadalarında da fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdır. O, tarixdə ilk dəfə yunan-Roma güləşi üzrə dördqat Olimpiya çempionu olub.

M.Lopesdən əvvəl ən titullu güləşçi rusiyalı Aleksandr Karelin idi. O, olimpiadalarda 3 qızıl və 1 gümüş medal qazanmışdı.

# Beynəlxalq aləm

## İbrahim Rəisi İranın Prezidenti vəzifəsinə təsdiq olundu



Dünən Tehranda İranın ali lideri Əli Xamenei tərəfindən İbrahim Rəisinin ölkə Prezidenti vəzifəsinə təsdiq olunması ilə bağlı mərasim keçirilmişdir.

Mərasimdə İran İslam Respublikasının 7-ci prezidenti Həsən Ruhani, parlamentin spikeri Məhəmməd Bəkir Qalibaf və digərləri iştirak etmişlər.

Xameneinin dəftərxanasının rəisi Məhəmməd Qulpayegani müvafiq sənədin mətnini oxumuşdur: "Seçicilərin İbrahim Rəisinin xeyrinə verdiyi səsləri təsdiqləyir və onu İran İslam Respublikasının Prezidenti təyin edirəm".

Yeni Prezident öz çıxışında ABŞ-ın sanksiyalarının aradan qaldırılması üçün mübarizə aparacağını vəd vermişdir: "Biz sanksiyaların ləğvi üzərində çalışacağıq, lakin xalqın həyat səviyyəsini xarici dövlətlərin iradəsi ilə əlaqələndirmək niyyətində deyilik".

Rəisinin andiçmə mərasimi avqustun 5-də keçiriləcək.

Xatırladaq ki, siyasətçi ötən ayın 18-də keçirilmiş seçkilərdə 17,9 milyon səslə qələbə qazanmışdır.

İbrahim Rəisi əvvəlki prezidentdən fərqli olaraq mühafizəkar siyasi düşərgəyə aiddir.

## ABŞ "Delta" ştammına görə karantin məhdudiyyətləri tətbiq etməyəcək



ABŞ hökuməti yeni "Delta" ştammına görə ölkədə yenidən karantin məhdudiyyətləri tətbiq etmək niyyətində deyil. Bunu Ağ Evin mətbuat katibi Cen Psaki mətbuat konfransında deyib.

O bununla bağlı bildirib: "Yenidən iş sahələrində məhdudiyyətlər olmayacaq. İqtisadi sahədə çox irəliləmişik". Ağ Evin sözçüsünə ABŞ-ın keçmiş prezidenti Barak Obamanın bu həftə xeyli sayda qonağın iştirakı ilə 60 yaşını qeyd etməsinə dair də sual verilib. C.Psaki sualı cavablandıraraq deyib: "Əlbəttə ki, hər kəsə tibb mütəxəssislərinin tövsiyələrinə riayət etməyi məsləhət görürük. Bildiyimə görə, keçmiş prezident tibb işçilərinin tövsiyələrinə əməl edərək vaksinasiyanın güclü tərəfdarıdır".

## Vaksinlərin qiyməti artır




Avropa Komissiyası COVID-19 əleyhinə vaksinin qiymətinin ehtimal olunan artımı barədə rəsmi şəkildə elan edib. Bu barədə AZƏRTAC xəbər verir.

Məlumata görə, bu, ilk növbədə, "Biontech/Pfizer" və "Moderna" şirkətlərinin preparatlarına aiddir. Brüsseldə təsdiqləyiblər ki, tədarük üçün yeni sazişlər barədə Avropa Komissiyası ilə istehsalçılar arasında aparılan danışıqlarda qiymət artımı açıqlanıb. Bu tələb onunla bağlıdır ki, vaksinlərin koronavirusun yüksək yoluxuculuq qabiliyyətinə malik "Delta" variantına uyğunlaşdırılmasına ehtiyac var. Virusların yeni mutasiyasına qarşı vaksinlərin adaptasiyası onların dəyərini təkcə Avropa İttifaqı deyil, həm də bütün istehlakçılar üçün bahalaşdırır.

Xəbər verilir ki, "Biontech/Pfizer" peyvəndi dozasının qiyməti 15,5 avrodan 19,5 avroya, "Moderna" vaksininin isə 19 avrodan 21,5 avroya qalxacaq.

## Meksikada 200 milyon barel neft ehtiyatı olan yataq aşkarlanıb




İtaliyanın "Eni" neft şirkəti Meksika şelfində yerləşən 10-cu blokdakı "Sayulita" quyusunda kəşfiyyat qazıntısından sonra yeni yataq aşkarlandığını bildirib.

İlkin dəyərləndirmələrə görə, yatağın ehtiyatları 150-200 milyon barel neft təşkil edə bilər. AZƏRTAC xəbər verir ki, "Eni" şirkətinin məlumatına görə, yataqda gündəlik istehsal gücü təqribən 3 min barel olan yaxşı keyfiyyətə malik 55 metrlik neft təbəqəsi mövcuddur. Bu, İtaliya şirkəti tərəfindən təxminən sahilboyundan 70 kilometr aralıda, Kuenka-Salina rayonunda uğurla qazılan yeddinci quyudur. Quyu 325 metr dərinlikdə qazılıb, ümumi dərinlik isə 1758 metr təşkil edir. "Eni"nin 10-cu bloku Rusiyanın "LUKoyl" və Böyük Britaniyanın "Cairn Energy" şirkətlərinə məxsusdur.

## Paşinyan yeni hökuməti formalaşdırır



Ermənistan prezidenti Armen Sarkisyan ölkədə 6 nazir və baş nazirin müavininin təyinatı ilə bağlı sərəncamlar imzalayıb.

"Trend" agentliyi erməni KİV-ə istinadən xəbər verir ki, baş nazirin müavini vəzifəsində Mger Qriqoryan qalıb. Əvvəlki hökumətdən Vaan Kerobyan iqtisadiyyat naziri, Anait Avanesyan səhiyyə naziri vəzifələrini saxlayıb. Sabiq ombudsman Karen Andreasyan ədliyyə naziri, keçmiş iqtisadiyyat naziri Tiqran Xaçatryan isə maliyyə naziri təyin olunub.

Qeyd edək ki, iki gün əvvəl A.Sarkisyan Nikol Paşinyanın baş nazir təyin olunması ilə bağlı sərəncam imzalamışdı. Eyni zamanda Arşak Karapetyan müdafiə naziri təyin olunmuşdu.

## Moskva estoniyalı diplomatı persona non qrata elan edib



Rusiya Estoniya səfirliyinin əməkdaşını persona non qrata elan edib. Estoniya səfiri Rusiya Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb. Bu barədə Rusiya XİN-in mətbuat xidmətinin məlumatına istinadən APA agentliyi xəbər yayıb.

Rusiya XİN-dən bildirilib ki, iyulun 7-də Estoniyanın Sankt-Peterburqdakı Baş Konsulluğunun baş konsulu Mart Lyatte diplomatik statusa uyğun olmayan fəaliyyəti ilə əlaqədar persona non qrata elan olunub. Buna cavab olaraq Estoniya XİN iyulun 15-də Rusiyanın Estoniyadakı səfirliyinin əməkdaşını persona non qrata elan edib.

"Bununla əlaqədar Estoniyanın Rusiyadakı səfiri Marqus Laydre Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb. Ona etiraz təqdim olunub və qarşılıqlılıq prinsip əsasında Estoniyanın Moskvadakı diplomatik nümayəndəliyinin bir işçisinin persona non qrata elan edildiyi, həmin şəxsin bir həftə ərzində Rusiya Federasiyasının ərazisini tərk etməli olduğu barədə səfir nota alıb", - deyə Rusiya XİN-in məlumatında qeyd edilib.

## Atlantik okeanının şimalında sualtı ada aşkarlanmışdır

Alimlər Atlantik okeanının şimalında nəhəng quru parçası aşkarlamışlar. Okeanda itirilmiş bu quru parçası əfsanəvi Atlantida haqqında fikirlərə diqqəti cəlb edir. Belə ki, alimlər itirilmiş Atlantidanı tapdıqlarını güman edirlər.

Tədqiqatı ABŞ-ın Kembric Universitetinin alimləri Ross Hartleyin rəhbərliyi altında aparmışlar. Sualtı ada Şotlandiyanın şimal-şərqində 10 min kvadrat kilometr sahəni əhatə edir. 56 milyon il əvvəl mövcud olmuş zəngin floralı ada iki kilometrlik süxur qatının altında gizləndiyindən onu aşkar etmək üçün xeyli zəhmət sərf edilmişdir.

R.Hartleyin fikrincə, bir milyon il mövcud olmuş və okeandan 600 metr hündürlükdə yerləşmiş adada artıq çay dərələri, yarğanlar, təpəliklər və düzənliklər formalaşmışdı. Canlı aləm isə ada sualtına çökən müddətdə yaranmışdır.

Alimlər adanın hansı geoloji ölçülərlə formalaşdığını və birdən-birə okeanın dibinə çökmə səbəblərini araşdırırlar.

Belə fikir irəli sürülür ki, sualtı ada Havay adaları kimi vulkanik proseslər nəticəsində yaranmış və müəyyən vaxtdan sonra okean plitəsində çatların yaranması nəticəsində suyun altına çökmüşdür.

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri işlərinin davam etdirilməsi məqsədi ilə

### *təkliflər sorğusu elan edir*

LOT - 1. Xətai rayonu 263 nömrəli tam orta məktəbin ikimərtəbəli korpusunun və birmərtəbəli keçidlərin sökülərək yeni korpusların (idman və akt zalı ilə) inşasının davam etdirilməsi.

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 496-52-05.

İştirak haqqı hər LOT üçün - 500,00 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidir:

- *təkliflər sorğusunda iştirak etmək üçün ərizə;*
- *təkliflər sorğusunda iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *təkliflər sorğusu təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *təkliflər sorğusunda təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak etmək üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 17 avqust 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 18 avqust 2021-ci il saat 11:00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Dənizçi MTK-nın balansında olan 2B binasının daxili tamamlanma işlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 avqust 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 09 iyun 2021-ci il tarixdə www.etender.gov.az portalında və "Azərbaycan" qəzetində elan olunmuş COVID-19 xəstəliyinin virusunu müəyyənləşdirə bilən laboratoriya testlərinin aparılması xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş açıq tenderdə "Referans Klinik Laboratoriya Mərkəzi" MMC qalib elan olunmuşdur.

Həmin MMC ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin tabeliyində olan sosial xidmət müəssisələri üçün dərman, sarğı ləvazimatları və materiallarının satın alınması üzrə "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxs ilə "SOLAMEDİCAL" MMC arasında 30.07.2021-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Birinci və İkinci Şəhidlər xiyabanında tanınmadan dəfn edilmiş 32 şəhid məzarında ekshumasiya işləri aparılır

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası naməlum şəhid məzarları ilə bağlı ekshumasiya və tibbi-genetik ekspertizanın aparılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında Bakı şəhərindəki Birinci Şəhidlər xiyabanında tanınmadan dəfn edilmiş 23, İkinci Şəhidlər xiyabanında isə 9 şəhid məzarından meyitin qəbirdən çıxarılmasına (ekshumasiya) dair 2021-ci il 3 iyun tarixdə Bakı Hərbi Məhkəməsi tərəfindən qərarlar qəbul edilib.

Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibbi kriminalistik ekspertin iştirakı ilə ekshumasiya keçirilib və tibbi-genetik tədqiqat üçün müvafiq nümunələr götürülüb.

Hazırda Respublika Hərbi Prokurorluğu və aidiyyəti ərazi prokurorluqlarının iştirakı ilə zəruri tədbirlər həyata keçirilir.

Qeyd edək ki, naməlum məzarlar Birinci Qarabağ müharibəsində şəhid olmuş şəxslərə aiddir.

İctimaiyyətə ətraflı məlumat veriləcək.

## Baş Prokurorluq və DİN narkotik vasitələrin alqı-satqısına görə tutulan şəxsin ölməsi barədə məlumat yayıb

Avqustun 2-də Siyəzən Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotik vasitələrin alqı-satqısında şübhəli bilinən rayon sakini, 1990-cı il təvəllüdlü Tural İsmayılovun evində axtarış aparılıb.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, axtarış zamanı 8 bükülüdə psixotrop maddə olan metamfetamin aşkarlanaraq götürülüb.

Tural İsmayılov şübhəli şəxs qismində tutularaq saxlanılması üçün Siyəzən Rayon Polis Şöbəsinin müvəqqəti saxlama yerinə təhvil verilib. Həmin gün saat 22 radələrində onun səhhəti saxlanıldığı müvəqqəti saxlama yerində qəfildən pisləşdiyindən polis əməkdaşları tərəfindən dərhal Siyəzən Regional Diaqnostika və Müalicə Mərkəzinə yerləşdirilib. Lakin həkimlərin səyinə baxmayaraq, Tural İsmayılov orada ölüb.

Hazırda faktla bağlı Siyəzən Rayon Prokurorluğunda araşdırma aparılır. Tural İsmayılovla eyni və qonşu kameralarda saxlanılan şəxslərin və növbədə olan polis əməkdaşlarının izahatları alınıb, məhkəmə-tibb ekspertizası təyin edilib, hadisə yerinə və meyitə baxış keçirilib və digər zəruri prosessual hərəkətlər həyata keçirilib.

Qeyd edək ki, ekspert tərəfindən keçirilmiş ilkin xarici müayinə zamanı meyit üzərində hər hansı xəsarət aşkarlanmayıb.

Araşdırmanın nəticəsindən asılı olaraq qanuni qərar qəbul ediləcək.

## Dövlət sərhədindən narkotik maddənin keçirilməsi cəhdinin qarşısı alınıb



Azərbaycan Respublikasının dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, avqustun 1-də DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Bala Bəhmənli kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədinin pozulması əlamətləri aşkarlanıb, sərhəd zastavası "silaha" komandasına qaldırılaraq ərazi qapadılıb.

Keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində Füzuli rayonunun Araz-Zərgər kəndi ərazisində gizlədilmiş yerdən iki bağlamanı götürərək "Toyota Camry" markalı avtomobillə ərazidən uzaqlaşmağa cəhd göstərən iki nəfər şübhəli şəxs saxlanılıb.

Avtomobil sürücüsünün Moskva şəhər sakini 1977-ci il təvəllüdlü Vəliyev Hüseyn Vəlixan oğlu və sərnişinin Hacıqabul şəhər sakini 1976-cı il təvəllüdlü Məmiyev Teymur Adil oğlu olmaları müəyyənləşdirilib. Onların götürdükləri bağlamalara baxış zamanı ümumi çəkisi 14 kiloqram 500 qram narkotikə (8200 qram marixuana, 4200 qram heroin, 2100 qram metamfetamin) və psixotrop tərkibli 690 ədəd metadon-40 həbinə bənzər maddə aşkarlanıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Abşeron Rayon İcra Hakimiyyəti

### *açıq tender elan edir*

LOT - 1. Abşeron rayonu, Xırdalan şəhərinin Nizami küçəsinin dalanlarının, Koroğlu küçəsinin dalanının və Fatmayı kəndinin Şəhid Qafar Əliyev küçəsinin asfaltlanması işlərinin satın alınması.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-1.1-ci maddəsinə əsasən, açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilən müsabiqədə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

İştirak haqqının ödənilməsi yalnız **"ASAN ödəniş"** vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək istəyənlər müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə LOT üzrə **300 (üç yüz ) manat məbləğində iştirak haqqını** ödəyərək Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

**Satınalan təşkilat: Abşeron Rayon İcra Hakimiyyəti**
**H/h: AZ46CTRE00000000000002516831**
**VÖEN: 3100056421**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**S.W.I.F.T: CTREAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi: Abşeron Rayon İcra Hakimiyyəti başçısı aparatının baş məsləhətçisi Əliyev Fariz Murad oğlu.

Telefon: (012) 342-11-16, 050 332-47-77, elektron poçt: fariz.eliyev.58@mail.ru

Ünvan: Xırdalan şəhəri, M.Ə.Rəsulzadə küçəsi, 7

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak haqqının ödənilməsi barədə təsdiqedici sənəd.*
2. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri (iddiaçıların hüquqi sənədlərinin surəti notarial qaydada təsdiqli olmalıdır).*
3. *Tender təklifi (Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətinin dayandırıldığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməlidir (01 iyul 2021-ci il tarixdən sonrakı tarixdə alınmış arayış olması mütləqdir.).*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektinə aid edilməsi barədə müvafiq dövlət orqanından arayış.*
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməlidir (01 iyul 2021-ci il tarixdən sonrakı tarixdə alınmış arayış olması mütləqdir.).*
9. *İddiaçının analoji işlərdə təcrübəsi, maddi-texniki və kadr imkanları haqqında rəsmi məlumat.*
10. *İddiaçının son üç ildə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə görə məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə rəsmi məlumat.*
11. *Məhkumluğun olmaması barədə arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır. İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla tələb olunan digər sənədləri 24 avqust 2021-ci il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 01 sentyabr 2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 02 sentyabr 2021-ci il saat 17:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərneftkimyaquraşdırma" ASC-nin səhmdarlarının nəzərinə

"Azərneftkimyaquraşdırma" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı 23 sentyabr 2021-ci il saat 16:00-a təyin edilmişdir. Ümumi yığıncağın keçiriləcəyi ünvan: AZ1108, Bakı şəhəri, Dərnəgül qəsəbəsi, məhəllə 2090, küçə, 560/510.

Gündəlikdə duran məsələlər:

1. Cəmiyyətin 2019-cu ilin yekunlarına dair maliyyə-təsərrüfat nəticələrinin təsdiqlənməsi.
2. Cəmiyyətin 2020-ci ilin yekunlarına dair maliyyə-təsərrüfat nəticələrinin təsdiqlənməsi.
3. Səhmdar cəmiyyətinin səhmdarlarının növbədənkənar və növbəti yığıncağının çağırılması üçün KİV-də elanın verilməsi, ümumi yığıncağın çağırılması barədə bildirişlərin və digər zəruri sənədləşmənin müəssisənin baş mühasibi tərəfindən imzalanması və onun cəmiyyətin möhüründən istifadə səlahiyyətinin təsdiq olunması.
4. Cəmiyyətin İdarə Heyəti sədrinin dəyişdirilməsi və yeni sədrin təyin olunması.
5. Cəmiyyətin Nizamnaməsində Müşahidə Şurasının ləğv edilməsi və Nizamnamənin bu ləğvetmə haqqında yeni layihəsinin təsdiqi.

***İdarə Heyəti***

## "Azərbaycan Milli Antidopinq Agentliyi" publik hüquqi şəxs Mövcud FortiGate avadanlıqlarının yenilənməsi (dəstəyin göstərilməsi ilə birlikdə) üçün kotirovka sorğusu elan edir

Tender iştirakçıları öz qiymət təkliflərini 19 avqust 2021-ci il saat 12:00-a kimi İzmir küç, 8, "Hyatt Tower" III ünvanına təqdim etməlidirlər.

Qiymət təklifləri 20 avqust 2021-ci ildə yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

Əlavə məlumat almaq üçün (012)599-08-28 nömrəli telefonla əlaqələndirici şəxs Əhədov Pərviz Mikayıl oğluna müraciət etmək olar.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi-şöbə müdiri Natiq Əmirova əzizi

SƏYALI İSLAMOVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 4837
Sifariş 1391
Qiyməti 40 qəpik